www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 8 sentyabr 2015-ci il Çərşənbə axşamı № 198 (6226) Qiymәti 40 qəpik

Xəbər

## "AMAY Abdulla"ya 13 il həbs cəzası verildi

yazısı səh.2-də

Gündəm

### Hakim partiyanın siyahısı qocalarla gəncləri üz-üzə qoyub

Köhnə YAP-çılar narazıdır; Eldar Sabiroğludan sonra Əli Əlizayevlə Şahlar Əsgərov da üzə çıxdı; Siyavuş Novruzovdan həmkarına sərt reaksiya gəldi

yazısı səh.12-də

### Türkiyə ordusuna qarşı xain hücum - 16 şəhid

yazısı səh.3-də

*Gülər Əhmədova:*

### "Özümə qarşı qisasçılıq gördüm"

yazısı səh.5-də

### Qafqazın ən güclü ordusu Ermənistanı təşvişə salıb

yazısı səh.4-də

### Mahal İsmayıloğlunun qızından ürək dağlayan məqalə

yazısı səh.6-də

### Sevil Əliyeva "Azadlıq" qəzetinə sərt cavab verdi: "Ayıb olsun!"

yazısı səh.3-də

### Sirus Təbrizlinin vəfatından 2 il ötdü

yazısı səh.4-də

### Novella Cəfəroğlunun "55" açıqlamasına deputatlardan cavab gəldi

yazısı səh.7-də

### Həmkarları Rauf Mirqədirovla bağlı prezidentə müraciət edə bilər

yazısı səh.12-də

### Bakının ən iri təlimlərlə dünyaya çatdırdığı əsas mesaj

yazısı səh.13-də

### Azərbaycanda 2,5 milyon nəfərin kredit borcu var

yazısı səh.2-də

### Rusiyalı milyonçu avantürist yenə Qarabağa qayıtmaq istəyir

yazısı səh.13-də

## Nəqliyyat Nazirliyi "qara kassa"sını təhvil verir

# ZİYA MƏMMƏDOV "PORTFELSİZ" QALIR

Taksi lisen(ziya)larının ASAN xidmətə tapşırması barədə fərman nəqliyyat naziri ilə bağlı xəbərləri yenidən aktuallaşdırıb; milyonlarla qeyr-qanuni vəsaitin toplanılması yanvardan sonra mümkün olmayacaq; "Azeryolservis" də faktiki itirilmək ərəfəsindədir...




yazısı səh.5-də

## XİN-də yeni qalmaqal-daha bir diplomatımız xarici ölkəyə sığındı

Avstraliyadakı səfirliyin əməkdaşı Anar Həsənov korrupsiya faktlarını açıqladığı üçün cəzalandırıldığını, XİN isə diplomatın xidmət qaydalarını pozduğu üçün işdən kənarlaşdırıldığını iddia edir

yazısı səh.11-də



### Saleh Məmmədov qurtuluş düsturunu açıqlayır; "böhran bizə heç nə..."

yazısı səh. 8 və 9-da



*Elxan Şahinoğlu:*

### "Yeni müharibə lokal deyil, regional xarakter daşıyacaq..."

yazısı səh.7-də



*Tənzilə Rüstəmxanlı:*

### "Seçkiyə ya Sabir bəy qatılmalıdır, ya da mən"

yazısı səh.10-da



## İlham Əliyev Ərdoğana başsağlığı verdi

**Azərbaycan prezident İlham Əliyev Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğana Türkiyədə baş verən terror aktı ilə bağlı başsağlığı məktubu yollayıb.**

Məktubda deyilir: "Hakkari vilayətinin Dağlıca bölgəsində törədilmiş terror aktı nəticəsində çoxsaylı türk hərbçilərinin şəhid olması və yaralanması xəbəri məni son dərəcə kədərləndirdi. Türkiyə xalqı əmin ola bilər ki, bu terror hadisələrini törədənlər heç vaxt öz çirkin məqsədlərinə çata bilməyəcəklər.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

Allah rəhmət eləsin!"

## QAT xəbərdarlıq etdi: "Bu xəyanətə görə..."

**"Biz erməni şahmatçılarının Bakıda keçiriləcək Dünya Kuboku yarışlarında iştirakına dair yayılan xəbəri qəzəblə qarşılayırıq. İştinilən erməni nümayəndəsinin, o cümlədən idmançısının Azərbaycana səfərlərinə şərait yaradanlar erməni siyasətinə xidmət edirlər".**

Qarabağ Azadlıq Təşkilatının (QAT) bəyanatında belə deyilir. Təşkilatın yaydığı sənəddə qeyd olunur ki, bu, Azərbaycanın milli maraqlarına xəyanətdir: "Bu xəyanətə görə məsuliyyət Azərbaycan hakimiyyətinin, yarışın konkret təşkilatçılarının, həmçinin bu prosələri sükutla izləyən siyasi partiya və ictimai təşkilat rəhbərlərinin üzərinə düşür. Biz bir daha hər kəsə müraciət edir, bu xəyanət və rəzalət prosesinin qarşısını almağa çağırırıq. Hər kəs öz məsuliyyətini dərk etməlidir. Erməni şahmatçıları hava limanında, nəqliyyatda, oteldə, yarış zallarında- hər yerdə, hər kəsin nifrətini, qəzəbini hiss etməli, görməlidir". QAT bəyan edib: "Bu, adi nifrət, qəzəb deyil, işğalçı Ermənistanın nümayəndələrinə, təbliğatçılarına olan nifrətdir, qəzəbdir. Dünya bunu bilməli və başa düşməlidir. Biz, öz növbəmizdə erməni şahmatçılarını Bakıya gəlməməsi, gələrlərsə, dərhal rədd olub getmələri üçün bütün vasitələrdən istifadə edəcəyik".

❑ **Vüqar MURAD**

## Azərbaycanda 2,5 milyon nəfərin kredit borcu var

**Azərbaycanda 2 milyon 472 min 302 nəfər kredit götürüb. AzVision.az xəbər verir ki, bu barədə Mərkəzləşdirilmiş Kredit Reyestri Xidmətinin 2015-ci il avqustun 1-nə olan bülletenində məlumat verilir. Məlumatda qeyd olunur ki, onların böyük bir hissəsi 2 milyon 438 min 268 nəfəri fiziki şəxslər, daha sadə şəkildə desək istehlakçılardır. Bundan əlavə, 11 083 hüquqi şəxslər, 22 min 951 nəfəri isə sahibkarlıq subyektidir. Zamin şəxslərin sayı isə son bir ayda 15 min 823 nəfər artaraq, 1 milyon 157 min 351 nəfərə çatıb.**

Bülletendə o da qeyd olunub ki, 2015-ci ilin fevralın 1-nə borcalanların sayı 2 milyon 342 min 233 nəfər, martın 1-nə 2 milyon 366 min 967 nəfər, aprelin 1-nə 2 milyon 389 min 292 nəfər, mayın 1-nə isə 2 milyon 414 min 122 nəfər, iyunun 1-nə isə 2 milyon 434 min 759 nəfər olub.

### Başsağlığı

**Milli Strateji Düşüncə Mərkəzinin sədri İsa Qəmbər MNTK-nın sədri Sevinc xanım Hüseynovaya xalaları**
**Hörmət və Sevil xanımların**
**vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

***

**Müsavat Partiyasının başqanı Arif Hacılı və Partiyanın Divanı MNTK-nın sədri Sevinc xanım Hüseynovaya xalaları**
**Hörmət və Sevil xanımların**
**vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

***

**Müsavat Partiyasının başqanı Arif Hacılı və Partiyanın Divanı Kərimxan bəyə əmisi oğlu**
**Zeynalov Bayandurun**
**vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**


## "Elm" tədris mərkəzi

**MAGIC LANGUAGES**

- ➔ Ali məktəblər xarici dillər
- ➔ kompyuter kursları
- ➔ Magistratura - dövlət qulluğu - məntiq
- ➔ 1.C. mühasibat - anbar - bank işi
- ➔ Məktəbə qədər həftədə 5 dəfə
- ➔ Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012)421-10-46; (012)323-55-21; (055)660-60-95;
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74; (055) 660-07-05


# "AMAY Abdulla"ya 13 il həbs cəzası verildi

**Sentyabrın 7-də Bakı Ağır Cinayətlər Məhkəməsində "AMAY" ticarət mərkəzinin həbsdə olan rəhbəri Abdulla Abdullayev, Heydər Rzayev, Mehman Məmmədxanlı, Elşən Novruzov, Vidadi Qurbanov və Nadejda İlyasovanın barəsində olan cinayət işi üzrə növbəti - sonuncu məhkəmə prosesi keçirilib. (virtualaz.org)**



Hakim Əfqan Hacıyevin sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən şəxslərdən Elşən Novruzov, Heydər Rzayev və Mehman Məmmədxanlı son söz deyiblər və bəraət hökmü çıxarılmasını istəyiblər.

Daha sonra məhkəmə müşavirəyə yollanıb. Fasilədən sonra prosesdə hökm oxunub.Hökmə görə, Abdulla Abdullayev 13 il müddətinə azadlıqdan məhrum edilib.

Proses digər təqsirləndirilən şəxslərə hökm oxunuşu ilə davam edib. Digər təqsirləndirilənlər Heydər Rzayev, Mehman Məmmədxanlı, Elşən Novruzov və Vidadi Qurbanovun hər birinə 9 il, Nadejda İlyasovaya isə 8 il şərti cəza verilib.

Qeyd edək ki, Abdulla Abdullayev və digərləri Cinayət Məcəlləsinin 179.3.2 (mənimsəmə və ya israf etmə) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə təqsirləndirilir.

Təqsirləndirilən şəxslərdən yalnız A.Abdullayev barəsində həbs-qətimkan tədbiri seçilib, digər şəxslər isə zamindədir.

A.Abdullayev ötən il aprelin 4-də həbs olunub. Onunla bağlı İqtisadiyyat və Sənaye Nazirliyi yanında Sahibkarlığa Kömək Milli Fondundan daxil olmuş material Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində araşdırılıb.

A.Abdullayevin həbsi ilə bağlı Baş Prokurorluğun mətbuat xidmətinin zamanında yaydığı məlumata görə, ilkin araşdırma zamanı toplanmış sübutlar əsasında Cinayət Məcəlləsinin 179.3.2 (mənimsəmə və ya israf etmə) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə cinayət işi başlanıb.

İstintaqın gəldiyi qənaətə görə, vəsaiti ayrı-ayrı hüquqi şəxslərin müvəkkil bank olan "Birlikbank" ASC-də açdırdığı hesablaşma hesablarına köçürülməklə həmin vəsaiti faktiki rəhbəri olduğu "A.M.A.Y" MMC-nin Xətai rayonu ərazisində yerləşən binasının təmir-tikinti işlərinə xərcləyib. Özgənin külli miqdarda əmlakını mənimsəməsində şübhələr üçün ciddi əsaslar olduğundan A.Abdullayevə Cinayət Məcəlləsinin qeyd olunan maddələri üzrə ittiham elan edilib və barəsində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib.



## Salyanın təhsil şöbəsinin müdiri işdən qovuldu

**Salyan Rayon Təhsil Şöbəsinin müdiri Əbülfət Ağababa oğlu Bədəlov vəzifədən uzaqlaşdırılıb.**

Musavat.com-un əldə etdiyi məlumata görə, Ə.Bədəlov işdə yol verdiyi nöqsanlara görə vəzifədən kənarlaşdırılıb.

Ə.Bədəlov 2010-cu ilin aprel ayından bu vəzifəni icra edirdi. O, əvvəllər 50 saylı Salyan-Neftçala Dairə Seçki Komissiyasının sədri vəzifəsində çalışıb.

Xatırladaq ki, keçmiş təhsil şöbəsinin fəaliyyəti zamanı yol verdiyi qanunsuzluqlarla bağlı mətbuatda dəfələrlə məlumatlar yer alıb.

Ə.Bədəlovun təhsil şöbəsinin müdiri olduğu müddətdə müəllimlərin maaşından qanunsuz haqq tutması, yeni dərs illərində siniflərin bölgüsü zamanı müəllimlərdən rüşvət tələb etməsi kimi şikayətlər mətbuatın gündəmində yer alıb.

Məsələ ilə bağlı Ə.Bədəlovla əlaqə saxlamaq cəhdlərimiz baş tutmadı. Ə.Bədəlovun telefonu söndürülmüşdü.

## Ərəstun Oruclu İsa Qəmbərlə görüşündən danışdı

**Parlament seçkiləri yaxınlaşdıqca, seçkilərdə iştirak edəcək namizədlərin siyahısı da bəlli olur. Hakim Yeni Azərbaycan Partiyası hələ seçkidə iştirak edən namizədlərinin siyahısını açıqlamasa da, müxalifət cəbhəsində bir sıra deputatlığa iddialı şəxslərin adları, artıq bəllidir.**

Son günlər sosial mediada seçki ilə bağlı statuslar yazan politoloq Ərəstun Oruclunun Müsavat Partiyasının siyahısından namizədliyini irəli sürəcəyi ilə bağlı ictimaiyyətdə fikirlər dolaşır. Politoloqun elə sosial şəbəkədə Müsavat Partiyasının keçmiş başqanı İsa Qəmbərlə birlikdə foto paylaşması qeyd etdiyimiz məsələ ilə bağlı fikirləri daha da aktuallaşdırdı. Ə.Oruclu İsa Qəmbərlə şəkilini paylaşaraq yazıb: "Bu gün İsa bəylə xalqın arasında idik".

Məsələ ilə bağlı Ərəstun Oruclu ilə danışdıq. Politoloq musavat.com-a açıqlamasında bildirdi ki, namizədliyini vermək barəsində hələ qərarlı deyil: "Parlament seçkilərinə namizədliyimi verəcəyim təqdirdə, bunu yalnız müstəqil şəkildə etməyi düşünürəm. Namizədliyimi verməkdə qərarlı olmamağımın müxtəlif səbəbləri var. Səbəblərdən biri odur ki, prezidentliyə namizədliyimi verdiyim 2013-cü ilə müqayisədə indi vəziyyət daha ağırdır. Ümumiyyətlə, seçkilərlə bağlı hələ çox şey aydın deyil. Seçkilərə təxminən 50 gün vaxt qalsa da, Mərkəzi Seçki Komissiyasının formal bəyanat və açıqlamaları nəzərə almasaq, ölkədə bununla bağlı demək olar ki, heç bir addım atılmayıb".

Ə.Oruclu bildirib ki, İ.Qəmbərlə birlikdə olduğu şəkili paylaşmasının siyasi çaları mövcud deyil:

"Seçkilərə gedərsəm, qeyd etdiyim kimi tam müstəqil formada namizədliyimi irəli sürəcəm. Adi yoldaş kimi İsa bəylə görüşüb söhbət etmişəm və bunun da fotosunu paylaşmışam. Yəni buna siyasi məna vermək lazım deyil".

❑ **Əli RAİS**


## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**


## Azərbaycan Ordusunun 65 minlik hərbi maşın karvanı yola çıxdı

**Silahlı Qüvvələrin bütün qoşun növlərinin döyüşə hazırlama və döyüş qabiliyyətinin yoxlanılması məqsədilə sentyabrın 6-dan başalayan Komanda Qərargah Hərbi Oyunlarının ilkin mərhələsinə start verilib. Müdafiə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, birinci mərhələdə qoşunların və idarəetmə məntəqələrinin əməliyyat təyinatı rayonları istiqamətində yerdəyişməsinin, səfərbərlik ehtiyatlarının toplanması və təyinatı üzrə göndərilməsinin mühafizə və müdafiəsinin təmin edilməsi məqsədilə döyüş aviasiyası ehtiyat aerodromlarına köçürülüb, eləcə də Raket və Artilleriya Qoşunlarının birlik və hissələri müvəqqəti atəş və start mövqelərinə çıxarılıb. Kolonların hərəkəti və hərbi daşınmaların hava hücumundan qorunması Hava Hücumundan Müdafiə qoşunları tərəfindən həyata keçirilir.**

Döyüş texnikası və şəxsi heyətin hərəkətinin tənzimlənməsi və təhlükəsizliyinin təmin edilməsi məqsədilə yollarda və marşrutlarda komendant xidməti təşkil olunub. Komanda Qərargah Hərbi Oyunları sentyabrın 13-dək davam edəcək.

## Azərbaycanlı qadını parçalayan şəxs 14 il sonra tutuldu, amma sərbəst buraxıldı

**2001-ci ildə Türkiyədə vəhşicəsinə qətlə yetirilən azərbaycanlı qadının qatili hələ ki, cəzasını almayıb. Qətldə şübhəli bilinən şəxs 14 il sonra saxlanılsa da günahı sübut olunmadığından azadlığa buraxılıb.**

Musavat.com xəbər verir ki, 2001-ci ildə İstanbulda dəfələrlə bıçaqlanmış, bədəni, qolları və ayaqları bir-birindən ayrılmış qadın cəsədinin kimliyi müəyyənləşdirilib. Parçalara ayrılan qadının azərbaycanlı Təzəgül Dadaşava olduğu məlum olub.

**Təzəgül Dadaşovanın oğlu Saleh Dadaşov** anasının itkin düşməsi ilə bağlı Türkiyə polisinə müraciət edib. Türkiyə polisi 11 il sonra yenidən araşdırmalara başlayıb. İnterpol vasitəsilə Dadaşovanın ailəsindən alınan analizlə məlum olub ki, cəsəd həqiqətən də Təzəgül Dadaşovaya aiddir.

Saleh Dadaşov anasının Mevlüt Soytürk adlı şəxs tərəfindən təhdid edildiyini polisə bildirib.

Araşdırmalar zamanı məlum olub ki, T.Dadaşova öldürülməmişdən bir neçə dəqiqə əvvəl sonuncu dəfə M.Soytürklə telefonla danışıb.

Həbs edilən M.Soyterk dünən - sentyabrın 6-da İstanbul Ağır Cəza Məhkəməsində hakim qarşısına çıxarılıb. O, "başqasının işlədiyi cinayətin cəzasını mən çəkəcəyəm?" deyib və azadlığa buraxılmasını istəyib.

**Hakim M.Soytürkün qatil olması ilə bağlı kifayət qədər sübutun olmadığını əsas gətirərək onu sərbəst buraxıb.**

❑ **İlkin MURADOV**



## Yazarımız Tofiq Yaqubluya Azadlıq!

# Günün içindən

YENİ MÜSAVAT
N 198 (6226) 8 sentyabr 2015

# Sevil Əliyeva "Azadlıq" qəzetinə sərt cavab verdi: "Ayıb olsun!"

## "Öz evimə gələ bilmərəm? Bu nə uydurma və səviyyəsizlikdir?"

**Mərhum prezident Heydər Əliyevin qızı, prezident İlham Əliyevin bacısı Sevil Əliyeva Bakıdadır. Bu haqda mətbuatda məlumatlar verilib və onun ilkin açıqlaması dərc edilib. Sevil Əliyeva özü haqqin.az-a açıqlamasında bildirmişdi ki, azad insan və turist kimi Bakıya gəlib: "Çoxdan idi valideynlərimin məzarını ziyarət etmirdim.**

Yeni Bakının gözəlliklərini görməyi də çox istəyirdim. Biz hazırda atamın bir vaxtlar yaşadığı iqamətgahda qalırıq. O, bizi həmişə aşağıda, qapının qarşısında qarşılayardı. Həmin anlar həmişə gözümün önündədir, unutmamışam. Bu ev bizə atamı xatırladır. O, bizi sonuncu dəfə də buradan yola salmışdı".

**Ancaq "Azadlıq" qəzeti Sevil Əliyevanın Bakıya gəlişinin səbəbləri barədə digər iddialar yazıb.** Qəzet iddia edib ki, xeyli müddətdir Londonda yaşayan Sevil Əliyevanın Azərbaycana qəfil gəlişi mərhum əmisi Aqil Əliyevin oğlu İlqar Əliyevlə bağlı yaranmış hansısa problemlərlə əlaqəli olub: "Məlumat üçün deyək ki, Beynəlxalq Bankla bağlı "kredit qalmaqalı"na görə İlqar Əliyevin sahibi olduğu dərman satışı ilə məşğul olun "Riad Farm" şirkətinin hüquqi sahibi Həsən Şərifovla icraçı direktoru Aqil Quliyev həbs olunub. Onlar Beynəlxalq Bankdan külli miqdarda kredit götürərək mənimsəməkdə ittiham olunur. İddialara görə, İlqar Əliyev bu məsələ ilə bağlı əmisi oğlu olan ölkə başçısı İlham Əliyevin qəbuluna gedib. Lakin ölkə başçısı onu qəbul etməyib. Bundan başqa, məlumata görə, İlqar Əliyevdən Baş Prokurorluqda tutduğu vəzifədən istefa verməsi barədə ərizə alınıb. Bildirilir ki, Sevil Əliyeva məhz bu məsələləri yoluna qoymaq üçün Bakıya gəlib".



Sevil Əliyeva

Bu iddialarla bağlı Sevil Əliyeva yenidən açıqlama verib. O, haqqin.az-ın bununla bağlı müraciətinə çox sərt reaksiya verib: "İlk növbədə demək istəyirəm ki, sizə ayıb deyilmi? Yəni, mənim doğma şəhərimə gəlmək haqqım yoxdur? Öz evimə gələ bilmərəm? Bu nə uydurma və səviyyəsizlikdir? Axı mən artıq dedim ki, bura azad bir insan kimi gəlmişəm. Qohumlarım və dostlarım ilə görüşürəm. Valideynlərimin məzarını ziyarət etmişəm. Bax, indi də mən oğlumla birlikdə evdəyəm. Əmiqızı Fəxriyyə Xələfova və onun oğlu Məhəmməd bizə qonaq gəlib, oturub birlikdə çay içirik".

**Daha sonra S. Əliyeva yayılan məlumata münasibət bildirib:** "O ki qaldı mənim əmim oğlu İlqar Əliyevə, bununla bağlı onu demək istəyirəm ki, mən sonuncu dəfə institutda oxuyanda onu görmüşəm. Bu nə axmaqlıdır, siz nə danışırsız?! Ümumiyyətlə, mən nə bu oliqarxlarla bağlı, nə onların kreditləri haqqında, nə də digər qalmaqallarla bağlı heç nə bilmirəm. "Oliqarx", "məmur", "vəzifə", - bunlar mənim ruhuna yad olan sözlərdir. Hətta atam prezident olduğu vaxtlarda belə mən nə nazirlər, nə də məmurlarla heç vaxt görüşməzdim. Dövlət işlərinə heç vaxt qarışmamışam. Mənə yaxın insanlar, dostlar bunu yaxşı bilirlər. Mənim anam da belə idi".

**Sonda Sevil Əliyeva jurnalistlərdən onun adını bu cür qalmaqallara qarışdırmamağı xahiş edib:** "Mənim adımı müxtəlif intriqalara və siyasi spekulyasiyalara cəlb etmək, qarışdırmaq lazım deyil. Hamınızdan bunu xahiş edirəm!".

❑ **Hazırladı: NƏZRİN**

# Türkiyə ordusuna qarşı xain hücum

## PKK-çıların törətdiyi partlayış 16 Türkiyə əsgərinin şəhid olmasına səbəb oldu, bölgədə yenidən geniş miqyaslı əməliyyatlar başlayıb, 300-dən artıq PKK-çı mühasirəyə düşüb

**Sentyabrın 6-da Türkiyənin Hakkari vilayətinin Dağlıca rayonunda PKK terrorçuları Türkiyə ordusuna məxsus avtomobilləri partladıb. İlkin ehtimallara görə, yola basdırılmış təxminən 400 kq ağırlığında C-4 tipli partlayıcı maddə hərbi maşınların ərazidən keçdiyi vaxt terrorçular tərəfindən partladılıb. Nəticədə 3 avtomobil minaya düşüb, iki maşın isə tamamilə parçalanıb.**

İlk vaxtlar həlak olan hərbçilərin sayı açıqlanmasa da, sonradan beynəlxalq informasiya agentlikləri partlayış nəticəsində 16 hərbçinin şəhid olduğunu yazıb. Hadisə zamanı yaralanan 8 hərbçi isə Yüksəkova dövlət xəstəxanasına gətirilib. Ancaq rəsmi qurumlardan əlavə məlumat almaq mümkün olmayıb. Hökumət qüvvələri bölgədə genişmiqyaslı əməliyyatlara başlayıb, əraziyə çoxlu sayda canlı qüvvə və zirehli texnika cəlb olunub. Hadisədən sonra hava şəraitinin əlverişsiz olması səbəbindən bölgəyə helikopterlər gələ bilməsə də, sonradan Türkiyə hərbi hava qüvvələrinin terrorçuların gizləndiyi ehtimal olunan bölgələri bombalaması xəbərləri yayılmağa başlayıb.

Türkiyə Ordusu Baş Qərargahı sentyabrın 4-dən başlayaraq bölgədə genişmiqyaslı əməliyyatlara start verildiyini açıqlayıb. Eyni zamanda açıqlamada F-16 və F-4 hərbi təyyarələrinin PKK-ya məxsus 13 mövqeni bombaladığı qeyd olunur. Hadisədən az sonra baş nazir təcili toplantı keçirib. Prezident Rəcəb Tayyib Ərdoğan isə canlı yayımda verdiyi müsahibədə hadisədən üzüldüyünü və terrorçuların bunun əvəzini çox ağır ödəyəcəklərini bildirib: "Olay Dağlıcada aparılan təmizlik zamanı minaların ard-arda partladılması nəticəsində baş verib. Baş Qərargah rəisimizin verdiyi məlumatlar üzücüdür. Hazırda orada çətin hava şəraitində əməliyyatlar davam edir. Hamımızın başı sağ olsun, Allah səbir versin".

Türkiyə prezidenti antiterror əməliyyatları başlayandan bu günə qədər 2 minə yaxın PKK-çının məhv edildiyini və terrorçuların Dağlıca hadisəsinin əvəzini də çox ağır ödəyəcəklərini söyləyib. O, Xalqların Demokratiya Partiyasını (HDP) terroru dəstəkləməkdə ittiham edib.

Türkiyədə baş verən terror hadisəsi dünyada böyük diqqətə səbəb olub. Nüfuzlu media orqanları PKK terrorunun fəallaşaraq orduya hücumlarından yazıb. Azərbaycan prezidenti İlham Əliyev türkiyəli həmkarına başsağlığı məsajı göndərib.

Türkiyə müxalifəti isə hökuməti terrora qarşı sərt addımlar ata bilməməkdə ittiham edib. Milliyyətçi Hərəkat Partiyasının sədri Devlət Bahçeli şəhid olan hərbçilərin məsuliyyətinin prezidentin üzərində olduğunu bildirib. Eyni zamanda o, AKP hökumətini PKK terroru üzərindən siyasi manipulyasiya etməkdə günahlandırıb.

Doğan Xəbər Agentliyi sentyabrın 7-də HDP-dən olan deputat Əsəd Canan da daxil olmaqla QHT və ictimaiyyət nümayəndələrindən ibarət 200 avtomobilin hadisə baş verən bölgəyə getdiyini, ancaq Qamışlı jandarma postunda dayandırıldıqlarını yazıb. Agentlik hökumət qüvvələrinin əməliyyat bölgəsini tamamilə əhatəyə alaraq kənardan kimsəni buraxmadığını qeyd edir. Gecədən bu yana isə havadan və qurudan bölgəyə xeyli sayda əsgər və texnika cəlb edilib. Hadisə baş verən gecə saat 12 radələrində baş nazir baş qərargah rəisi, daxili işlər, ədliyyə, kəşfiyyatın rəhbəri, həmçinin ordu komandanları ilə birgə müşavirə keçirib.

Türkiyə mediası isə ötən gün ordu birliklərinin 60 nəfərli PKK qrupunu mühasirəyə aldığını, eyni zamanda bu qrupa köməyə gələn 150 nəfərlik terrorçu dəstənin qarşısını kəsərək əhatəyə aldığını və gecə boyu bu qruplarla gərgin döyüşlərin davam etdiyini yazıb.

Yalnız günün sonunda nəhayət Türkiyə ordusu Baş Qərargah əməliyyatla bağlı məlumat açıqlayıb. Rəsmi məlumatda qeyd olunur ki, sentyabrın 6-da Dağlıca-Yüksəkova yolunun nəqliyyata açılması məqsədilə aparılan əməliyyat zamanı PKK tərəfindən daha əvvəl quraşdırılmış minaların partladılması nəticəsində 16 Türkiyə hərbçisi şəhid olub. 6 nəfər isə hospitala yerləşdirilib, onların həyati təhlükəsi yoxdur.

Terrorçulara qarşı başladılan əməliyyatın davam etdiyi, terrorçuların istifadə etdiyi 23 hədəf, o cümlədən 6 mağara, 2 anbar, 12 ağır pulemyotçu mövqeyi havadan bombalanaraq məhv edilib.

**Son hadisə Türkiyə ordusunun son iki ayda apardığı əməliyyatlar zamanı verdiyi ən böyük itkilərdən biridir. İki aya yaxındır davam edən savaşın günü-gündən qızışması onu göstərir ki, yaxın vaxtlarda PKK terrorunun qarşısını almaq mümkün olmayacaq. Üstəlik davam edən siyasi çəyr-müəyyənlik, noyabrın 1-də təyin olunan seçkilər, keçici hökumətin olması ölkədə sabitlik faktorunu ciddi şəkildə zəifləyir.**

❑ **KƏNAN**

# Ayətullah Həmədani niyə gəlmişdi?



Kənan RÖVŞƏNOĞLU

## Yaxud Şeyx Bakı-Tehran münasibətlərində vasitəçi rolunda

**Xəbər verildiyi kimi, ötən həftə İranın nüfuzlu islam alimi Ayətullah Nuri Həmədani Azərbaycana səfər edib. O, ölkəmizdə bir həftə qalıb, bu müddətdə Bakıda, Təzə Pir məscidində, Hüseyniyyə ibadətgahında, Bibiheybət ziyarətgahında, Nardaranda, həmçinin Şamaxı Cümə məscidində, Gəncədə Şah Abbas məscidi və "İmamzadə" kompleksində olub, görüşlər keçirib.**

Qeyd edək ki, şiə dünyasının nüfuzlu alimi, müctəhid, mərcəyi-təqlid Ayətullah Nuri Həmədani İranda böyük nüfuz sahibidir. Hazırda 92 yaşı olan alim ilk təhsilini Həmədanda əvvəl atasından, sonra isə yerli mədrəsədə alıb. Daha sonra Qum elmi hövzəsinə gedən Həmədani burda dərin ilahiyyat təhsili alıb, ictihad dərəcəsinə çatıb. Bir sıra elmi əsərlərin, o cümlədən şəriət risaləsinin müəllifidir, bu gün də yuxarı dərəcəli ilahiyyatçılar üçün xaric dərsləri deyir.

Ancaq Ayətullah Həmədaninin şöhrətinin arxasında həm də onun ictimai fəaliyyəti dayanır. İranda Şah dönəmində başlayan etiraz dalğasını dəstəkləyən, Şaha qarşı çıxış edən və buna görə sürgünə göndərilən az saylı nüfuzlu ruhanilərdən biri Həmədani olub. Bu səbəbdən hazırda onun İslam Respublikasında rəsmi qurumlar və şəxslər yanında böyük hörməti var.

Maraqlıdır ki, müctəhidlər bir qayda olaraq yaşlı adamlar olduqları üçün ədən nadir hallarda səfər edir. Ancaq 92 yaşına rəğmən, Həmədani son illərdə İraq, Rusiya, indi isə Azərbaycana səfər etdi. Görünən odur ki, onun bu səfərləri sadəcə, yaşlı alimin marağından qaynaqlanmır, həm də müəyyən missiya daşıyır. Eyni zamanda dövlət üzərində ciddi təsiri olan ruhaninin səfəri həm də rəsmi olmasa da, dövlətin maraqlarına uyğun olduğunu demək olar.

Maraqlıdır ki, Ayətullah Həmədaninin Azərbaycana səfərinin təşəbbüskarı və təşkilatçısı QMİ sədri Şeyxülislam Allahşükür Paşazadədir. Ancaq həm Bakıdakı qarşılanma, təşkilatçılıq və protokol onu deməyə əsas verir ki, bu səfər dövlətlər arasında razılaşdırılıb. Həmədaninin Azərbaycana səfər etməsində dövlət rəhbərliyi də maraqlı olub.

Bu səbəbdən də hökumət İslam aliminin səfərini yüksək səviyyədə təşkili üçün Şeyxə hər cür dəstəyi verib. Bu isə təbii ki, daha sox son zamanlar İran və Azərbaycan arasında münasibətlərdən qaynaqlanır. Son illərdə həm Bakı, həm də Tehran ikili münasibətlərin inkişafında maraqlıdır. Burda həm iqtisadi maraqlar, qarşılıqlı yatırım imkanları, eləcə də birgə enerji tranziti və sair kimi böyük miqyaslı layihələrlə yanaşı, regionda sabitliyin getdikcə daha da kövrəkləşməyə doğru getdiyi bir vaxtda İran kimi böyük qonşu ilə etimad mühiti yaratmaq istəyi ilə izah oluna bilər.

Məsələ burasındadır ki, Azərbaycan hazırda faktiki olaraq Ermənistanla müharibə şəraitindədir, hər an savaş ola bilər. Digər tərəfdən qonşu Türkiyədə PKK və İŞİD terroruna qarşı savaş başlayıb. Artıq PKK ilə savaş Azərbaycanın sərhədlərində aparılır. Bundan başqa radikal dinçi terror təşkilatlarının yaratdığı təhdid, Şimali Qafqazda yenidən müharibənin başlaması təhlükəsi Bakını regional əməkdaşlığı, təhlükəsizlik imkanlarını artırmağa sövq edir. Bu məsələdə isə hazırda Azərbaycanla İranın maraqları üst-üstə düşür, hər ikisi bölgədə terror müharibəsinin başlamasını istəmirlər.

Beləliklə, həm iqtisadi, həm də təhlükəsizlik maraqları hazırda Bakı və Tehranı bir-birinə yaxınlaşdırır. Bu istiqamətdə ən fəal vasitəçilərdən biri də Şeyxülislamdır. Şeyx artıq bir neçə ildir ki, şəxsi əlaqələri hesabına Bakı ilə Tehran arasında münasibətlərin istiləşməsi üçün çalışır. Ayətullah Həmədaninin Bakıya dəvət edilməsi və xoş qarşılanması böyük ehtimalla Şeyxin təşəbbüsü və dövlət rəhbərliyinin dəstəyi ilə baş tutub.

**Bu hadisə eyni zamanda Bakı ilə Tehran arasında bir zamanlar yaranmış dini mövzuda kəskin fikir ayrılıqlarını aradan qaldırmağa hesablanıb. Müstəqillikdən sonra ilk dəfə Azərbaycana bu cür yüksək səviyyəli ruhani alim gəlib. Bu fakt Şeyxülislamın Azərbaycanda dini elitanın başında dayanan şəxs kimi qəbul olunduğunu bir daha təsdiqləməklə yanaşı, onun mövqelərini möhkəmlədir.**

YENİ MÜSAVAT
N 198 (6226) 8 sentyabr 2015



# O başqa bir Sirus Təbrizli idi...

## 2 il qocaman dostsuz...

**O nu ilk dəfə televiziyada - 1990-cı illərin əvvəllərində, mən yeniyetmə olarkən "Açıq-aşkar" verilişində görmüşdüm. O illərdə çox izlənilən bir veriliş idi, böyüklərə qoşulub biz də baxırdıq. Çılğın çıxışları, sərt tənqidləri ilə tamaşaçıları ekran qarşısında necə deyərlər, "nəfəs çəkmədən" oturda bilirdi. İllər keçdi, 2002-ci ildə şəxsən tanış olduq Sirus Təbrizli ilə. Bir tədbirdə ayaqüstü açıqlama aldım. Həmişəki kimi, nəsə sensasiyalı bir sözlər danışmışdı. Elə o zamandan əlaqələrimiz sıxlaşdı, sonra möhkəmləndi, ardından - 2012-ci ildən ailə dostluğuna çevrildi.**

Bizi Nabrandakı evinə dəvət etmişdi ailəliklə həmin il. Özünün bütün ailə üzvlərini də ora toplamışdı. Tam bir gün qonağı olduq orada. O çılğın, sərt adamın ailə-uşaqla nə qədər mehribanlıqla davranış sərgiləyən biri olmasına heyran qalmışdım. Adaşı olan nəvəsi Sirusla bəndənizin varisi Sultanı skuterinə mindirib ta motosiklın benzini qurtarana qədər Nabran ərazisində gəzdirmişdi. Həm də körpələrlə davranışına görə bu insanın nə qədər fərqli olduğunu kəşf etdim...

Axşama yaxın ikimiz həyətin bir küncünə çəkilib "dövlət sirləri"ndən, siyasətdən, ölkədəki idarəetmədən, durumdan saatlarla söhbət etmişdik. Adam sözün əsl mənasında dövlətçi idi. Və mən o söhbətdə anlamışdım ki, mərhum prezident Heydər Əliyevi necə səmimiyyətlə sevirmiş YAP-ın qurucularından olan, bu partiyanın adını qoyan Sirus Təbrizli. Onda başa düşdüm ki, bəzən səsləndirdiyi tənqidlər, gileylər isə məhz buradan qaynaqlanırmış; hər şey yaxşı olsun, mərhum dostunun ruhu şad olsun deyə çatışmazlıqların aradan qaldırılmasını istəyirmiş...



Hə, bir də Sirus Təbrizli ilə ailə dostu olduqdan sonra çox dəyərli bir insanı da tanıya bildim və əmin oldum ki, "hər bir uğurlu kişinin arxasında mütləq güclü bir qadın dayanır" fikri yanlış deyilmiş. Sirus bəyin xanımı və bu gün Təbrizli ailəsi ilə Məmmədli ailəsinin dostluğunu daha da möhkəmləndirən Rəfiqə həkim haqda az sonra bəhs edəcəm...

Sirus Təbrizli ilə çox səmimi bir dost idik. Baxmayaraq aramızda 35 yaşdan çox fərq vardı, amma onunla birlikdə olanda heç hiss etmirdik bunu. Biz hər şeydən danışa bilirdik. Ən qayğılı, mənəvi yorğun vaxtlarımda zəng edirdim ki, haradasız, əgər deyirdisə "Bilgəhdəyəm", cavabım bu olurdu ki, 20 dəqiqəyə oradayam. Gedirdim, dəniz kənarında saatlarla gəzişib söhbət edirdik, bəzən gecə yarıyadək.

2013-cü il sentyabrın ilk günləri idi. Zəng gəldi Sirus bəydən. 1 saata yaxın danışdıq. Dedi "Nabrandan 3-4 günə gəlirəm Bakıya, Bilgəhdə bağda görüşərik, bir geniş müsahibə də verəcəm".

Sentyabrın 7-si isə səhər iclasdan çıxıb facebooku açdım, gördüm vəkil Aslan İsmayılov ortaq dostumuz Sirus Təbrizlinin dünyasını dəyişməsi haqda xəbər paylaşıb. Nə Rəfiqə xanıma zəng edə bildim, nə də qızlarına... Sirus bəyin sürücüsü Namiqə telefon açdım. Ağlamsınaraq dedi hə, dünyasını dəyişdi ağsaqqal...

Sirus bəyin 40-ı çıxdı, planlaşdırırdıq gedək Rəfiqə xanıma baş çəkək. İnanılmaz bir şeydir bəlkə də; evdə bunun söhbətini etdiyimiz yerdə Rəfiqə xanım mənə telefon açdı, hal-əhval tutduq. Dedi "Elşad, Sirus bəyin sənə aid olan bir tapşırığı var, biz hər zaman ailə dostluğumuzu davam etdirməli, daha da möhkəmləndirməliyik. Sirus sadəcə cismən yoxdur bizimlə, o ölməyib, biz həmişə birlikdə olacağıq".

Rəfiqə xanım ailəmiz üçün tam doğma bir adamdır, son iki ildə sanki bizə təkcə dost yox, Sirus bəyin əmanəti kimi yanaşır. Eynilə biz də ona Sirus Təbrizlinin varisi, ailə üzvümüz, ablamız, "ikinci anamız" kimi baxırıq... O, həm də çox savadlı bir həkimdir.

Hətta onunla birlikdə olanda belə Sirus Təbrizlinin yoxluğunu hiss etmirik. Elə bilirik, yenə nəvəsi Sirusla Sultanı skutерə mindirib aparıb gəzdirməyə, axşama yaxın dönəcək...

**Ruhun şad olsun, qocaman dostum!**

❑ **Elşad MƏMMƏDLİ**

# Qafqazın ən güclü ordusu Ermənistanı təşvişə salıb



## Hərbi ekspert: "Sentyabrın 6-dan 13-dək Silahlı Qüvvələrin bütün qoşun növlərinin döyüş qabiliyyəti ən ciddi şəkildə yoxlanılacaq"

**A zərbaycan və Ermənistan silahlı qüvvələrinin təmas xəttində və iki ölkənin sərhədindəki gərgin vəziyyət ATƏT-i də hərəkətə keçməyə vadar edib. Ötən həftə cəbhə xəttində monitorinq keçirən qurumun fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kaspşik bu həftə Bakıya gələcək.**

Azərbaycan ordusunun genişmiqyaslı, on minlərlə şəxsi heyətin iştirakı ilə hərbi təlimlər keçirməsi, üstəlik, Türkiyə və Azərbaycanın hərbi hava qüvvələrinin birgə təlimləri Bakının savaş hazırlıqlarında olması qənaətini gücləndirməkdədir. Bu arada Ermənistanın Azərbaycanla həmsərhəd kəndlərinin evakuasiya olunması, düşmən ölkənin döyüş şəraitində mülki əhalini İrəvan ətrafına köçürməyin variantlarını nəzərdən keçirməsi Azərbaycanın Qarabağı qaytarmaq üçün son qərarı verməyə hazırlaşdığı barədə təxminləri artırır.

Bu ərəfədə Azərbaycan və Ermənistan ordularının müqayisəli təhlili də verilir. Hərbi yeniliklər üzrə ixtisaslaşan Amerikanın "Global Firepower" portalı dünyanın ən güclü ordularının növbəti reytinq siyahısını dərc edib. "Global Firepower"in mütəxəssislərinin fikrincə, Cənubi Qafqazda ən güclü ordu Azərbaycanındır. Azərbaycan siyahıda döyüş gücünə görə 63-cü yerdədir. Gürcüstan 75-ci, Ermənistan isə 74-cü yerdədir.

**Hərbi ekspert Üzeyir Cəfərov** "Yeni Müsavat"a bildirdi ki, Azərbaycan Silahlı Qüvvələrinin ötən həftə start götürmüş ən böyük və miqyasına görə ən möhtəşəm təlimləri haqqında məlumat təkcə bədnam qonşularımızı deyil, eləcə də onlara havadarlıq edən bir çox ölkələr üçün də bir növ "soyuq duş" effekti verib: "Ermənistanın və ona birbaşa havadarlıq edən ATƏT-in Minsk Qrupunun hər üç həmsədr ölkələrinin mətbuatı bizim təlimlərə xüsusi diqqət və indiyə kimi görmədiyimiz maraq göstərirlər. Həm yazılı, həm də elektron KİV-lər geniş təhlillər aparır, ordumuzun gücündən və imkanlarından ətraflı danışırlar. Şəxsi qənaətimə görə, bu çox yaxşı haldır. 20 ildən artıqdır ki, biz dözüm və səbir nümayiş etdiririk. Ölkənin büdcəsinin xeyli hissəsi hərbi məqsədlərə sərf edilir. Qısa da olsa rəqəmlərə nəzər salaq. Ölkəmiz 2014-cü ilə nəzərdə tutulan hərbi xərcləri 2013-cü ilə nisbətən 7,1 faiz artırıb. Ermənistanın hərbi xərcləri isə Azərbaycanın 2014-cü ildə dövlət büdcəsində müdafiə xərcləri bölməsi üzrə nəzərdə tutduğu vəsaitdən 5,3 dəfə azdır. Və üstəlik, son on il ərzində əldə etdiyimiz ən müasir silah-sursat, hərbi texnika. Hamı gözəl anlayır ki, biz kefimizdən bu qədər vəsaiti hərbi məqsədlər üçün ayırmırıq. Artıq biz bunun da son illər canlı şahidləriyik ki, Müdafiə Nazirliyi gecə-gündüz bütün cəbhəboyu ərazilərdə irili-xırdalı təlimlər keçirir. İndi geniş ajiotaja və müzakirələrə səbəb olan Hərbi Oyunlar da sözün əsl mənasında çoxlarını şoka salıb. Hərb elmindən başı çıxan hər bir kəs yaxşı anlayır ki, bu faktiki olaraq bütün Azərbaycan Silahlı Qüvvələrinin birgə təlimi kimi qəbul edilməlidir. Əgər əvvəllər biz yalnız tabor, hərbi hissə və hərbi birləşmə səviyyəsində belə təlimləri görmək imkanına malik idiksə, indi bütün ölkə üzrə, bütün qoşun növləri və birləşmələri bu təlimlərə cəlb edilib. Bu təlimlər barəsində məlumatlar Azərbaycan Silahlı Qüvvələrinin adının dünyanın, o cümlədən Cənubi Qafqazın güclü, müasir standartlara uyğun yenidən qurulan və təchiz edilən orduları sırasında çəkilməsi ilə demək olar ki, eyni saatlara təsadüf etdi".

**Ü.Cəfərov deyir ki, indiyə kimi biz hərbi təlimlərlə bağlı belə iri rəqəmləri eşitməmişdik:** "65 000 nəfərədək şəxsi heyət, 700-dək zirehli texnika, 500-dən çox raket və artilleriya qoşunlarının qurğusu, 40-dək təyyarə, 50-dək helikopter, 20-dək gəmi və kater. Sentyabrın 6-dan 13-dək Silahlı Qüvvələrin bütün qoşun növlərinin döyüşə hazırolma və döyüş qabiliyyəti ən ciddi şəkildə yoxlanılacaq. Təlimlərə eyni zamanda Xüsusi Təyinatlı Qüvvələrin və qruplaşmaların havadan mühafizəsi məqsədilə qoşunların hava hücumundan müdafiə bölmələri və müasir hava hücumundan müdafiə kompleksləri ilə silahlanmış zenit-raket birləşmələri də cəlb edilib. Pilotsuz Uçan Aparatlardan (PUA) da geniş istifadə olunacaq. Müharibə vəziyyətində olan və torpaqlarını düşməndən azad etmək istəyən hərbi-siyasi rəhbərlik qoşunların döyüşə tam hazırolma vəziyyətinə gətirilməsi və yenidən qruplaşması, müdafiənin aparılması, əks-hücum əməliyyatının hazırlanması və keçirilməsi, eləcə də düşmənin mühasirəyə alınması və darmadağın edilməsi üzrə tapşırıqları icra olunması üzrə real vəziyyəti qiymətləndirmək istəyir. Diqqət yetirdinizsə, təlimlər zamanı birləşmə və hissələrin səfərbərlik tapşırıqlarının yerinə yetirilməsi səviyyəsinin yoxlanılması məqsədilə ehtiyatdan 6000 nəfərdən artıq hərbi vəzifəlilərin də təlim toplanışına cəlb edilməsi qarşıya məqsəd qoyulub. Düşmən və havadarları yəqin ki, bundan sonra ordumuzun gücü ilə bağlı fikirlər səsləndirəndə, bir qədər diqqətli və ehtiyatlı olacaqlar".

**Hərbi ekspertə görə, Moskvaya səfər edən Ermənistanın cinayətkar prezidenti də bu təlimlərlə bağlı öz narahatçılığını Rusiya prezidenti, eləcə də Rusiya ictimaiyyətinin diqqətinə çatdırmağa çalışacaq:** "Kimin nə deməsindən və yazmasından asılı olmayaraq, şəxsən mən belə təlimləri çoxdan gözləyirdim. Açığı, ehtiyatda olan zabit kimi mən də tez bir zamanda belə təlimlərə cəlb olunacağım günü səbirsizliklə gözləyirəm. Bu, bir praktiki məşğələ, bilik və vərdişlərin təkmilləşdirilməsi üçün gözəl imkandır. Qarabağ cəbhəsində vəziyyəti bizim xeyrimizə dəyişə biləcək yeganə güc və vasitə Azərbaycan əsgəri olacaq, mən bu fikrimdə bir qədər də israrlı və əminəm".

❑ **Cavid TURAN**

# Nəqliyyat Nazirliyi “qara kassa”sını təhvil verir

**Ötən həftə taksi minik avtomobilləri ilə sərnişin daşınmasına xüsusi razılıq (lisenziya) verilməsinin ASAN xidmətə tapşırması barədə prezident İlham Əliyevin imzaladığı fərman nəqliyyat naziri Ziya Məmmədovun yaxın zamanlarda vəzifədən çıxarılacağı barədə xəbərləri yenidən aktuallaşdırıb. Maraqlıdır ki, bir neçə müddətdir məzuniyyətdə olduğu deyilən nazir vəzifə başına qayıtdıqdan sonra da sanki kölgəyə çəkilib. Bu isə haqlı suallar doğurur...**



# Ziya Məmmədov “portfelsiz” qalır

## Taksi lisen(ziya)larının ASAN xidmətə tapşırması barədə fərman nəqliyyat naziri ilə bağlı xəbərləri yenidən aktuallaşdırıb; milyonlarla qeyr-qanuni vəsaitin toplanılması yanvardan sonra mümkün olmayacaq; “Azeryolservis” də faktiki itirilmək ərəfəsindədir...

Prezidentin imzaladığı fərmanla Z.Məmmədov taksi minik avtomobilləri ilə sərnişin daşınmasına lisenziya verilməsi kimi külli miqdarda gəlirli bir sahəni faktiki itirmiş olub. Mətbuat dəfələrlə Bakıda taksi fəaliyyətinin tənzimlənməsi və belə avtomobillərə lisenziya verilməsi sahəsində ciddi problemlər olduğunu yazıb. Taksi sürücüləri ilə Nəqliyyat Nazirliyinin müfəttişləri arasında çoxsaylı davaların, hətta ölüm faktlarının olması, bu sahədəki rüşvətxorluq və özbaşınalıq hallardan da mətbuat çox yazıb. Amma bu lisenziya ilə bağlı problemin yalnız görünən tərəfidir...

5 illik lisenziyanın qiyməti 150 manat, aylıq ödəniş vergi də daxil, 27 manat olsa da, Nəqliyyat Nazirliyinin özünün “qoyduğu haqq” vardı. Taksi sürücüləri Nəqliyyat Nazirliyinin “qeyri-rəsmi kassasına” aylıq 60 manat ödəyir, əvəzində isə 19 manatlıq qəbz alırdılar. Paytaxtda taksi fəaliyyəti ilə məşğul olan minlərlə sürücünün olduğunu nəzərə alsaq, Nəqliyyat Nazirliyinin “büdcəsinə” lisenziyalara görə ildə milyonlarla manat vəsait daxil olurdu. Nəqliyyat müfəttişlərinin özbaşına əməlləri həm taksi sürücüləri, həm də vətəndaşları boğaza yığmışdı. Dəfələrlə mətbuatda və televiziyada özünü qoçu kimi aparan müfəttişlərə bağlı materiallar verilsə də, nazir onlara qarşı heç bir tədbir görmür, ya da görmək istəmirdi.

**Fərmanda lisenziyaya nəzarət gözlənildiyi kimi, həm Vergilər, həm də Nəqliyyat nazirliklərinə verilib.** Məlumatlara görə, lisenziya ilə bağlı bütün prosedurlar, siyahılar və sənədlər Nəqliyyat Nazirliyindən istənib. Bunun üçün bir qədər vaxt lazım olacaq və güman ki, yanvar ayında lisenziyaları artıq ASAN xidmət verəcək. Bu isə milyonlarla vəsaitin həm büdcəyə daxil olmasına, o cümlədən taksi xidməti ilə məşğul əhalinin narazılığının qarşısının almasına xidmət edəcək. Nəqliyyat Nazirliyi isə “qara kassadan” milyonlarla manat itirəcək...

Taksi fəaliyyətinə lisenziya verilməsinin ASAN Xidmətə tapşırılması iqtidarın Ziya Məmmədovu “portfelsiz nazir”ə çevrilməsi ilə bağlı planlardan irəli gəlir.

**Nəqliyyat Nazirliyinə tabe olan bəzi qurumlar faktiki olaraq müstəqilləşib.** Bu sırada “AZAL”ı və Azərbaycan Xəzər Dəniz Gəmiçiliyini göstərmək olar. Cavid Qurbanov “Azərbaycan Dəmir Yolları” QSC-yə rəhbər təyin edildikdən sonra demək olar ki, bu qurum da müstəqilləşib. Bundan başqa paytaxtda yol tikintisi Bakı Şəhər İcra Hakimiyyətinə, qəsəbə daxili yolların salınması bələdiyyələrə tapşırılıb. Yol tikintisi ilə məşğul olan “Azəryolservis”in müstəqil quruma çevrilməsi ilə bağlı proses də başlayıb.

Belə ki, Z.Məmmədov “Azəryolservis”in rəhbərliyinə Saleh Məmmədovu gətirsə də, fevral ayından bəri onun təsdiq üçün hökumətin razılığını ala bilmir. O, hələ də müvəqqəti olaraq sədrin səlahiyyətlərini icra edir. Yeri gəlmişkən, avqustun 5-də “Azəryolservis” ASC-nin yeni inzibati binasının açılışı planlaşdırılsa da, son anda prezidentin açılışa gəlməyəcəyi bəlli olub. İddialar var ki, baş qoruman “Azəryolservis”ə deputat Ağalar Vəliyevin təyin olunmasına çalışır. “Əgər bu plan gerçəkləşsə, ”Azeryolsevis" də faktiki olaraq nazirin nəzarətindən çıxacaq, bəlkə də müvafiq sərəncamla tam müstəqil quruma çevriləcək" deyə, mənbə redaksiyamıza bildirib.

Ötən həftə Ziya Məmmədovla bağlı daha bir diqqətçəkən hadisə baş verib. Onun kurasiyasında olan Nəsimi rayonunun icra başçısı Nəsib Məhəməliyev işdən çıxarılıb. Nəsib Məhəməliyev özü deputat olmaq istədiyini desə də, bu faktı da nəqliyyat nazirinin daha da zəiflədilməsi kimi izah edənlər də var.

**Proses çoxdan başlayıb, amma nə vaxt yekunlaşacağını yalnız bir nəfər bilir...**

❑ **“Yenì Müsavat”**

# “Özümə qarşı qisasçılıq gördüm”

## Gülər Əhmədova parlament seçkilərinə qatılmayacaq

**“Noyabr ayında keçiriləcək parlament seçkilərində iştirak etmək üçün namizədliyimi verməmişəm. Bir sözlə, deputat olmaq üçün seçkilərə qatılmayacam”. Bunu. Modern.az saytına açıqlamasında sabiq deputat Gülər Əhmədova deyib.**

O, parlamentdə təmsil olunan deputatların yaş fərqilə bağlı səslənən məsələyə də münasibət bildirib. “Düşünürəm ki, parlamentdə təmsil olunan insanların istər gənc, istərsə də yaşlı olmasının o qədər də önəmi yoxdur. Parlamentdə təmsil olunan dəyərli şəxslərin gənc, yaxud da yaşlı olması diqqət çəkməməlidir. Əsas meyar intellektli olmaq və vətənə, dövlətçiliyə bağlılıqdır”.

Gülər Əhmədova vaxtilə haqqında mətbuatda yazılanlar barədə də danışıb.

“Deputat olduğum dönəmlərdə həmişə jurnalistləri özümə dost hesab etmişəm. Lakin həyatımın məsuliyyətli dövründə jurnalistlərdən özümə qarşı qisasçılıq gördüm. Əlbəttə ki, bu, bütün jurnalistlərə aid deyil. Artıq bunların hamısı tarixdir. Bu barədə danışmağa dəyməz. Əsas olan odur ki, dövlətimiz, müstəqilliyimiz var olsun! Bu qədər!”.


Gülər Əhmədova

# Haqla haqsızlıq arasında...



Hüseynbala SƏLİMOV

**Böyük Volterin məşhur bir fikri var. Deyir ki, hökumət haqsız olanda haqlı olmaq təhlükəlidir... Neçə gün idi ki, bu fikir elə hey beynimdə dolaşırdı. Elə hey düşünürdüm ki, görən, bəs insan haqlı olanda nə baş verir? Haqsız cəmiyyətdə bu haqqı etiraf edirlərmi?..**

Bizə həmişə “Doğruya zaval yoxdur!” deyiblər. Biz də bunu qəbul etmişik və çalışmışıq ki, hər işimizdə doğru-dürüst olaq...

Amma həyat nə göstərir? Təəssüf ki, həyat başqa şey deyir. O deyir ki, güclüyə, bəli, güclüyə zaval yoxdur.

Volter müdrik adam idi. Bu müdrikliyi ona təkcə intellekti vermirdi. Yox, bu adam hakimiyyətin nə olduğunu təcrübədən bilmişdi. Ömrü boyu hökmdarların əhatəsində olan Volter bəlkə də siyasəti və hakimiyyəti hamıdan çox hiss edir, hamıdan çox duyurdu. Yəqin elə ona görə də o, vaxtilə bir az əvvəldə gətirdiyim fikri yazıbmış...

Volteri zarafatla o vaxtkı “Avropa parlamenti”nin spikeri adlandırırlar. Böyük hökmdarlar onunla yazışmaqdan qürur duyurmuşlar...

Amma gəl, zəmanəsinin elə böyük problemi olmayıb ki, Volter ona reaksiya verməsin və bu xüsusda fikrini bildirməsin...

Bu da hökmdarlarla onun arasında problemlərə gətirib çıxarırdı. Ona görə də Volterin də başı az bəlalar çəkməmişdi...

Bunları yazırdım ki, bizim Nizami haqqında da bu yaxınlarda oxuduqlarım yadıma düşdü...

Nizamini də öz sarayında görmək istəyən çox idi. Hətta ona kəndlər də bağışlamışdılar. Amma Nizami də hökmdarlarla yaxınlıqdan qaçırdı, onlardan məsafə saxlayırdı...

Ümumiyyətlə, mən hökmdar tayfası ilə problemsiz münasibətdə olan bir şəxs kimi yalnız Aristoteli xatırlayıram...

Bəlkə də ona görə ki, elə İsgəndər də adicə hökmdar deyildi və necə deyərlər, hakimiyyət filosofu idi?..

Bilmirəm. Bəziləri deyir ki, hakimiyyətlə dostluq etmək lazımdır. Amma bu, odla oynamaq kimi bir şeydir, məlum deyil ki, bu dostluqdan daha çox kim fayda götürəcək? Kimə bu dostluqdan daha çox şey çatacaq?.. Baxıb görürsən ki, hakimiyyətlə nəinki dostluq etmək, hətta bir ölkəni bölüşmək sonda gətirib ona çıxarır ki, azadlığını itirirsən...

Axır vaxtlar elə hey özümə bir sual verirəm: Mən azad insanammı? Getdikcə, bu suala cavab vermək mənim üçün çətinləşir...

Ona görə ki, özüm də hiss edirəm ki, azad deyiləm. Ona görə ki, azad olmayan ölkədə öz nisbi rahatlığımı, nisbi rifahımı düşünmək məcburiyyətindəyəm. Təbii ki, heç bir dostluqdan-filandan söhbət gedə və bu məsələ müzakirə predmeti ola bilməz....

Amma hakimiyyət adamı yetim uşağı sevindirən kimi sevindirməyi xoşlayır və biz də bunu yaşa dolduqca, həmin hakimiyyətlə bir ölkənin havasını bölüşə-bölüşə daha yaxşı başa düşməyə başlayırıq...

Özünüz bilirsiniz də yetimi necə sevindirirlər? Papağını götürürsən, ağlamağa başlayanda qaytarıb qoyursan başına və uşaq da sevinir...

Hətta bunlar da məni sıxmazdı. Əgər bir məsələ olmasaydı. Bir dəfə dostlardan biri çox bikefləmişdi, tamam ruhdan - həvəsdən düşmüşdü. Onda çalışdım ki, ona bir az ürək-dirək verim. Başladım Mirzə Fətəlidən, Mirzə Cəlildən danışmağa...

Dostum məni dinləməyinə dinlədi. Amma axırda sakitcə dedi ki, axı biz Mirzə Cəlil deyilik...

Bəli, dedi ki, Mirzə Cəlil olsaydıq, o missiya və o istedad bizdə də olsaydı heç olmasa, bunun xatirinə dözərdik, amma təəssüf ki, biz Mirzə Cəlil deyilik -bəli, insanlar dünənki havanı xatırlamadıqları kimi, bizləri də bir gündən sonra tamam unudacaqlar...

Mən ona deməyə söz tapmadım. Düz deyirdi. Biz nə Mirzə Cəlilk, nə Volter, nə də Nizami...

Sadəcə, bizim bəxtimizə haqsız hakimiyyətin dövründə haqlı olmaq yazılıb və bəlkə də daha yaxşısı bu olardı ki, biz də başqalarına qoşulaq, bu haqsız dünyada haqq savaşı açmayaq. Amma bunu da bacarmadıq. Sadəcə, Nizamidən, Volterdən və Mirzə Cəlildən bir zərrəcik var bizdə - haqsızlığa və ədalətsizliyə qarşı dözümsüzük...

Elə bizim missiyamızı da bu zərrəcik müəyyən edir. Biz ötürücülərik. Həmin o zərrəciyin ötürücüləri...

Prometey odu insanlara ötürdüyü kimi biz də haqlı olmaq və haqqa tapınmaq haqqının qoruyucularıyıq...

Görünür, Yardan özü də tarazlığı sevir. Haqsızlıq varsa, ona qarşı haqq da var.

**Onların nisbəti müxtəlif olur. Tanrı bu tarazlığı azacıq bu tərəfə və ya o tərəfə dəyişməklə insanları cəzalandırır və yaxud da ki, mükafatlandırır...**

YENİ MÜSAVAT
N 198 (6226) 8 sentyabr 2015



# Mahal İsmayıloğlunun qızından ürək dağlayan məqalə - "Eşidirsənmi, məni, ata..."

*Bağlanıb üzümə bütün qapılar,*
*Daha bu dünyada kimim var mənim?*
*Məni sevə-sevə torpaq aparar,*
*Sən məni torpağa qısqan, gözəlim!*

****

Atamın qələmindəndir bu şeir. İllər öncə - 2006-cı il 28 dekabrda, gecə saat 4-də anam üçün yazmışdı. "Ömür-gün yoldaşım Safura xanıma məndən yadigar", deyə...

Sanki onda hiss etmişdi 32 illik həyat yoldaşını tək, övladlarını atasız, gözüyaşlı qoyub gedəcəyini. Sonunu bilirdi. Özünün də dediyi kimi bağlandı üzünə bütün qapılar. Kimsəsiz qaldı. Yanında ailəsi, canında ağrıları, qəlbində çarəsizliyi vardı sadəcə...

**Bu gün Mahal İsmayıloğlunun kiçik qızı mən - Ayan Sadıqova bu yazını atam üçün yazıram.** Bu qeydlərimi bir daha bu həyatda görməyəcəyim, qoxusunu, nəfəsini duymayacağım atama, canım jurnalistimə həsr edirəm, həm də ruhunun başımın üstündə olduğunu hiss edərək. Mən bir jurnalist tanıdım. O da atam Mahal İsmayıloğlu...

**Lap əvvəldən başlamaq istəyirəm.** Mən Sadıqovlar ailəsində böyüyən iki övladdan 11 il sonra dünyaya gəlmis üçüncü uşağam. Bu gün 19 yaşım var. Atamla qeyd etdiyim son doğum günüm 19-cu yaş günüm oldu. 6 ay öncə atamla söhbət edərkən birdən "qızım, mənim 5-6 ay ömrüm qalıb", dedi. Çox üzüldüm. Sonralar da bir neçə dəfə bunu təkrar etdi. Onu bu fikirdən daşındırmağa çalışsam da sakitcə üzümə baxıb sözlərini başı ilə təkrar edirdi. İnsan öləcəyi zamanı necə hiss edər axı? Necə bilə bilər? Amma o, bilirdi.

Həm ürəyindən, həm də böyrəyindən əziyyət çəkirdi. Dəfələrlə ürək əməliyyatı keçirdi, amma ayağa qalxmağı bacardı. Hər dəfə sağlam şəkildə yanımda durduqca ürəyimlə danışırdım: "Mənim atama heç nə olmaz, o, güclüdür". İki il bundan öncəsinə kimi - böyrəyi ilə bağlı problemlər baş qaldırana qədər - hər şey çox yaxşı idi.

**2014-cü ilin aprel ayı idi.** Onu Türkiyəyə yola saldım. Böyrəyində yaranan şişlər səbəbindən sağ böyrəyi artıq funksiyasını itirmişdi və əməliyyat olunaraq götürülməli idi. Türkiyəyə gedişindən 10 gün sonra ad günüm olacaqdı. Yolda ona "biz - ailən hər zaman sənin yanındayıq. Səndən heç nə yox, sadəcə ad günümə hədiyyəm olmağını istəyirəm, ata!" deyə bir mesaj yazdım...



**Aradan bir neçə gün keçdi, əməliyyat uğurla başa çatdı, artıq yaxşılaşırdı.** Onuncu günün tamamında - aprelin 11-də sübh tezdən saat 06:15-də qapımız döyüldü. Qapını açanda atamı qarşımda gördüm. Həyatda aldığım ən dəyərli hədiyyəm oldu mənim...

**Sonra daha bir ili geridə qoyduq.** 2015-i qarşiladıq. Yeni il axşamı atam xəstə idi. Bayramdan bir neçə gün sonra onu xəstəxanaya yatırdıq və ürəyindən müalicə olundu. Artıq sağalacağına ümid edirdik ki, eyni xəstəlik daha kəskin şəkildə sol böyrəyində yarandı. Dünyamız yıxıldı. Həkimlər təcili olaraq böyrək köçürülməli olduğunu dedilər. Lakin bunun üçün külli miqdarda məbləğ tələb olunurdu. Ailəmizin maddi durumu buna imkan vermirdi. Sadəcə hər ay 500 manat dəyərində dərmanlarını ala bilirdik. Yüzlərlə insana zəng etdi, kömək istədi. Lakin zamanında əl tutduğu, kömək etdiyi şəxslər ondan üz döndərdilər. Beləcə, bütün qapılar üzünə bağlandı. Hər bağlanan qapı ilə də ümidləri yox oldu, arzuları puça çıxdı.

**Atasızlığa addım-addım yaxınlaşdığımı hiss etmirdim, xəbərim yox idi.** Daha sonra "Bakı 2015" Avropa Oyunları başladı. 18 000 könüllünün biri də mən oldum. Bakı Su İdman Sarayı qonaq qarşılama vəzifəsində çalışdım. Dövlətim üçün əlimdən gələn köməyin ən yaxşısını etməyə çalışdım ki, xarici qonaqlarımız bizdən narazı qalmasın, Azərbaycan haqqında bir mənfi söz belə işlədə bilməsinlər.

**Bu gün Bakı Slavyan Universitetinin Filologiya (fransız dili üzrə) fakültəsinin 3-cü kurs tələbəsiyəm.** Bacardıqca yaxşı oxumağa, savadlı bir şəxs olmağa çalışıram. Bunu yalnızca özüm üçün yox, həm də atamın adı və Azərbaycanım üçün edirəm. Mən 19 yaşlı gənc qız olaraq dövlətim üçün nəsə etməyə çalışıram. Əlimdən gələni əsirgəmirəm, əsirgəməyəcəm də - əməllərimlə, işimlə, əxlaqımla, namusumla. Bəs, atamın öz qələmi ilə xidmət etdiyi bu dövlətin ali kürsülərində oturan yüksək çinli məmurları bizim üçün nə etdilər? Onlara üz tutduq, əl açdıq. Amma atamın səsini nə özləri eşitmək istədilər, nə də eşitdirdilər. Düşünürəm ki, neçə-neçə xəstə insanın yenidən sağlam həyata qayıtması üçün köməyini əsirgəməyən cənab Prezidentim niyə soyuqqanlı oldu, şəfqətini əsirgədi? Bəlkə də atamın köməyə ehtiyacı olduğunu hörmətli Prezidentimə bildirmədilər. Yoxsa prezidentimiz İlham Əliyev Mahal İsmayıloğlu kimi qələm sahibini, illərlə jurnalistikada külüng vuran, yazıları ilə Azərbaycana xidmət edən bir mətbuat nümayəndəsini diqqətdən kənarda saxlamazdı. Ailəm mənim kiçik dövlətim, atam isə dövlət başçım idi. İndi bu dövlətim başsız qaldı...

**Mən bu həyatda çox acı daddım.** Ən dəhşəti, ən ağrılı atasızlıq imiş ki, onu da bu gün yaşayıram. Mən onun kiçik övladı olaraq gözlərim önündə əridiyini, yox olduğunu seyr etdim. Atam bir dəfə öldü, mən onunla hər gün öldüm- dirildim. Bir övlad üçün həyatda bundan acı nə ola bilər? Daha acısı varmış bilmirdim.

**Artıq Avropa Oyunları bitmişdi, atam gəlib yanımda oturdu və "qızım, mən yox olub gedirəm, son çarəm sənsən, mənə kömək et, yalvarıram", - dedi.** Əli yerdən-göydən üzülmüş, ümidini itirmiş sevimli atamın çarəsiz baxışlarını hələ də unuda bilmirəm. Səsi hələ də qulaqlarımdadı. Atamın o andakı səsi, sözləri heç vaxt ağlımdan çıxmayacaq.

**Əlimdən gələn tək şey atam üçün yardım toplamaq idi.** Oyunlar zamanı tanışdığım 70-ə yaxın dostumla birlikdə onun üçün yardım toplamağa çalışdıq. Həyatda ilk və son dəfə atam üçün qürurumu heçə saydım və bu yola baş vurdum. Şüarım "Atam üçün həyat, ailəm üçün gələcək istəyirəm", oldu. İnternetdə yüzlərlə səhifədə, sosial şəbəkələrdə paylaşdıq məlumatı. Atam lazım olan məbləğin toplanacağına və sağalacağına çox ümid bəsləyirdi. Çünki yaşamaq istəyirdiE

Banka gedib hesabımı yoxladım "cəmi bir manat var" dedilər. Əlim-qolum sınıb yanıma düşdü. Cəmi 50 metr yol gedə bildim. Axundov adına kitabxananın yanındakı parkda iki saat yerdə oturdum. Ürəyim boşalana qədər ağladım. Düşündüm ki, evə gedib atamın üzünə necə baxacam? Onun az da olsa qalmış ümidinin bir daha qırılıb çilik-çilik olmasına dözə biləcəyəmmi? Sürünə-sürünə evə getdim. Olanları anama danışdım, atamın üzünə çıxa bilmədim. Mənim əvəzimə anam "Mahal, heç nə alınmadı, kömək edən yoxdur", deyə bildi. Həyat gözündə qaraldı. Niyə? Niyə axı, kimsə səsimizi eşitmədi? Eşidənlər də əhəmiyyət vermədilər. Atamın həyatı, ailəmin gələcəyi beləcə məhv olub getdi. Və təxminən on iki gün sonra atam 28 avqust 2015- ci il tarixdə bu amansız dünya ilə vidalaşdı. Saat 11:56-da Respublika Klinik Xəstəxanasının hemodializ şöbəsində dializin bitməsinə beş dəqiqə qalmış gözlərini əbədi olaraq yumdu. O an... həyatımın mənasına acı qatmış həmin anda mənfur ölüm atamı əlimdən aldı...

**Vəziyyəti ağırlaşan zaman ona oksigen vermədilər.** Şoka girdiyi andan son nəfəsini verdiyi məqama qədər hər saniyəsinin, çırpınışlarının şahidi oldum. Xəstəxananın həyətə açılan pəncərəsindən baxırdım. Üzünü örtdülər atamın. Ölümündən 3 dəqiqə sonra yanına getdim. Atamın cansız bədəni ilə aramda bir addım məsafə vardı. O mənzərə dəhşət idi... Açdım üzünü baxdım, baxdım, son dəfə öpdüm, qoxladım. Qoxusunu içimə çəkdim, amma doymadım. "Getmə, nə olar, ata, aç gözlərini", deyə yalvardım, fəryad etdim. Amma getdi. Atam fəryadımı duydumu, görəsən? Duydusa bəs niyə getdi? Ölümündən 40 dəqiqə sonra illərdir sol biləyində gəzdirdiyi saatı dayandı. Yalnızca mən yox, əşyaları belə yoxluğunu hiss etdi. Artıq 10 gün keçdi. Bu gün o, yanımda yoxdu, bu gün atasızam. Geriyə sadəcə əşyaları və mənə buraxdığı "yetim" adı qaldı.

**Atamın mənə ən böyük mirası nəsihətləri, kəlmələridi.** Özünlə birlikdə gülüşlərimi, xoşbəxtliyimi alıb apardın, Ata. Söz vermişdin həmişə yanımda olacağına. Sənə səslənirəm, Mahal İsmayıloğlu, sənə! Adına, sanına yaraşdımı 19 yaşlı qızını, ailəni gözüyaşlı buraxıb getmək? Yaraşdımı?! Mən daha kimə ata deyəcəm? Kiminlə dərdləşəcəm? Dərslərimlə bağlı bilmədiklərimi kimdən soruşacam? Kim hər imtahandan çıxdıqda "necə keçdi, qızım, necə aldın" deyə soruşacaq? Bişirdiyim yeməkləri kim yeyəcək? Daha məndən kim çay, su istəyəcək? Ata deyib kimin qulluğunda duracam mən, Mahal İsmayıloğlu?

**Qabaqdan çiskinli, soyuq payız, ardınca da şaxtalı qış gəlir.** Məzar evin soyuq olacaq, ata, üşüməyəcəksənmi? İnana bilmirəm, bacara bilmirəm, yoxluğunu qəbul edə bilmirəm. Mən sənin qızınam, bilirəm, güclü olmalıyam. Amma heç nə sənə olan özləmimi məndən ala bilmir. Darıxıram, ata, çox darıxıram. Zarafatlarına, səsinə, gülüşünə, öpüşünə, qayğına, diqqətinə tamarzı qalmışam. Səni istəyirəm, təsəllim, arxam, dayağım, ümidim, bu günüm, gələcəyim Atam, səni istəyirəm! Eşidirsənmi, məni, fəryadım sənə çatırmı? Hardasan, mənim tək dünyam, tək həyatım olan sevimli Atam?..

**Zamanında əl tutduğun, amma bu gün səni - Mahal İsmayıloğlunu tanımayanları qınayıram.** Bağışlamayacam imkanı çatdığı halda telefonu üzünə bağlayanları. Bağışlamayacam çörəyini yeyib sənə arxa çevirənləri. BAĞIŞLAMAYACAM! Vaxtilə atamın başına fırlanan və hələ də vəzifə başında oturanlar, məni atasiz qoyanlar, sizə səslənirəm: həyatı bilmək olmaz. Heç kim deyə bilməz ki, xoşbəxtlik quşu sabah kimin başına qonacaq. 10 gün əvvələ qədər mənim gələcəyim sizlərdən asılı idi. Bir gün də sizin övladlarınızın, nəvə-nəticələrinizin gələcəyi məndən və dostlarımdan asılı ola bilər. Unutmayın!

**Özüm də daxil olmaqla geridə qalanlara Mahal İsmayıloğlu kimi şərəfli son diləyirəm. Mənim gözəl, sevimli Atam, sənin Ayan Mahalqızı deyə bir qızın var. Özünü yaşada bilmədim, amma adını yaşadacam, sənə, adına layiq övlad olacam. Mən ki, varam adına zərrə qədər də söz qondurmaram. Gözün arxada qalmasın. Yerin cənnət, ruhun şad olsun, canım atam!**

❑ **Ayan MAHALQIZI**

## Atam üçün həyat, ailəm üçün gələcək istəyirəm...





Həyatı 70000 manatdan asılı olan bir candan gedir söhbət- ATAMdan. Nə qədər ağlasığmaz olsa belə, 20 yaşımı atamla qeyd etmək üçün mənə belə qiymət dedilər. Onun xəstəliyi ilə mübarizə aparmışam. Həkimlər, xəstəxanalar, miokard infarkt deyərkən 6 əməliyyatı geridə qoyduq. Lakin bütün bunlara baxmayaraq nə atam, nə də ki mən ümidimizi itirmirik. Necə ki, itirmədik. 2014-cü ildə baş verən sonuncu əməliyyatda böyrəyində yaranan bədxassəli şişlər səbəbindən sağ böyrəyi götürüldü. Artıq sağalacağını ümid etdiyimiz halda eyni xəstəlik daha kəskin şəkildə sol böyrəkdə də yarandı. Nəticə etibarilə hal-hazırda 58 yaşlı atam böyrək çatışmazlığından əziyyət çəkir və təcili şəkildə son dəfə əməliyyat olunmalıdır. Çox təəssüf ki, ailəmizin bu məbləği qarşılayacaq imkanı yoxdur. Dostlar sizdən xahişim, bu məbləğin yığılmasında və atamı xilas etməkdə mənə dəstək olasınız. Mən bu yaşda həyatda dayaqsız, dəstəksiz - ATASIZ qalmaq istəmirəm.

Mahal İsmayıloğlu, 22.01.1957, jurnalist

**ATASIZ QOYMAYAQ!**

**Hesaba bank vasitəsilə pul köçürmək üçün**

Bank Respublika ASC MXD
Kod: 505668 VOEN: 9900001901
M/h : AZ80NABZ01350100000000014944
SWIFT : BRESAZ22

**Paypointlə pul köçürmək üçün**

Ad/Name : AYAN
Soyad/Surname :Sadiqova
IBAN : AZ60BRES00380194400250432301
Daxil edən şəxsin vəsiqəsinin seriya nömrəsi:

**Əlaqə nömrəsi : +994 55 899 78 56**
**Elektron poçt : ayan-mahal@mail.ru**

YENİ MÜSAVAT
N 198 (6226) 8 sentyabr 2015

# Novella Cəfəroğlunun "55" açıqlamasına deputatlardan cavab gəldi

**Hüquq müdafiəçisi Novella Cəfəroğlunun bu ilin noyabrında keçiriləcək parlament seçkiləri ilə bağlı "Yeni Müsavat"a açıqlamasında səsləndirdiyi fikirlər geniş müzakirələrə yol açıb. Namizəd olub-olmayacağı ilə bağlı suala cavabında hüquq müdafiəçisi bildirib ki, 55 yaşdan yuxarı şəxslər deputat olmasalar yaxşıdır.**

Yaşı 55-i keçmiş deputatların bu fikirlərə münasibətlərini öyrəndik.

**İqtidaryönlü deputat Fəzail Ağamalı** bu fikirlərdən təəssüfləndiyini dilə gətirdi: "Çox təəssüf edirəm ki, böyük hörmət bəslədiyim bir şəxs belə fikirlər səsləndirir, bunu özünə rəva bilir. Novella xanım hüquq müdafiəçisidir. Hüququn aliliyinə, insan haqlarına dəyər verməlidir. 55 yaşından sonra insanlar insanlıqdan çıxırlarmı? Onlara bu cür münasibət bəsləmək, onların hüquqlarını tapdalamaq olmaz. Dünyaya gəldiyi gündən dünyasını dəyişənə qədər hər bir insanın yaşam hüququ var. Yetkinlik yaşına çatdığı və həyatını müəyyənləşdirdiyi andan hər bir insan öz seçimini edir. Bu seçimlərə hər kəs hörmət etməyi bacarmalıdır. Bu məsələnin hüququ və insanı tərəfləridir. Məsələnin siyasi tərəfinə isə gəlincə, əslində parlament siyasi məkan, qanunverici orumudur. Cəmiyyət də qəbul edilmiş qanunlarla idarə olunur. Qanunlar və siyasət böyük təcrübə, emosiyadan kənar məsələyə yanaşmağı tələb edir. Gəncliyimizə daim önəm vermişəm. Hesab edirəm ki, bu gün Azərbaycan gəncliyi dövlətimizə sədaqətlə xidmət edir. Vətən uğrunda döyüşlərdə çoxlu sayda gənclərimiz şəhid olub. Nəzərə alaq ki, cənab prezident gənc yaşlarında bu məsuliyyəti üzərinə götürüb və hazırda müvəffəqiyyətlə idarə etməkdədir".

**F.Ağamalı onu da qeyd etdi ki, nəsilləri üz-üzə qoymaq düzgün deyil:** "Bu cür yanaşmalardan imtina etmək lazımdır. Gənclərimiz üzərlərinə düşən məsuliyyəti yerinə yetirməlidirlər. Həmçinin yaşlı nəsil də. 55 yaşdan sonra siyasətdə ən məhsuldar dövrdür. Bunu Novella xanım bilməmiş deyil. Çünki artıq bu yaşı keçib. O, yaxşı bilir ki, insanın 55 yaşına qədər təcrübəsi, dünyagörüşü ilə, bu



**Fəzail Ağamalı:** "55 yaşından sonra insanlar insanlıqdan çıxırmı?"



**Vahid Əhmədov:** "Millət vəkilinə yaş fərqi qoymaq düzgün deyil"



**Bəxtiyar Sadıqov:** "Parlament "cavan məclisi" deyil"

yaşdan sonrakı dövrü tamam fərqlidir. İnsanın sağlamlığı imkan verirsə, seçimini davam etdirməlidir. Deputatı seçən xalqdır. Xalq qarşısına çıxan şəxslərə yaşlarından asılı olmayaraq, nəzərdən keçirib qiymət verir. Əgər 55 yaşı keçmiş şəxs seçicilərin qarşısına çıxırsa, özünün platformasını insanlara çatdırırsa, seçiciləri özünə inandırırsa, təbii ki, xalq onu seçəcək. Həmin şəxs də 5 il ərzində ona göstərilən etimada söykənərək, xalqına, dövlətinə xidmət etməlidir. Açığı hörmətim olan Novella xanımın bu fikirləri məndə təəssüf doğurdu".

**İqtisadçı-deputat Vahid Əhmədov** da hüquq müdafiəçisinin fikirləri ilə razılaşmır: "Bu Novella xanımın şəxsi fikirləridir. Buna bir söz deyə bilmərəm. Amma millət vəkilinə yaş fərqi qoymaq düzgün deyil. Parlamentdə yaşlı insanların olması daha çox əhəmiyyət kəsb edir. Bu baxımdan səslənən fikirləri doğru hesab etmirəm".

**"Azərbaycan" qəzetinin baş redaktoru, deputat Bəxtiyar Sadıqov** Milli Məclisin məsuliyyətli yer olduğunu söylədi: "Azərbaycanda mətbuat və söz azadlığı mövcuddur. Ona görə də, kim nə istəyirsə deyə bilər. Sayt və qəzetlər çoxdur. Bu cür fikirlər deyilir və asanlıqla tirajlanır. Amma hər hansı bir məsələ haqqında səriştəli danışmaq üçün o məsələni bilmək, yaxından bələdçilik etmək lazımdır. Milli Məclis çox çətin, məsuliyyətli, insanlardan xüsusi bacarıq tələb edən yerdir. 15 illik təcrübəm var. Bunu cəsarətlə deyirəm. Milli Məclisdə elə-belə insanlar olmur. Hər kəs bir sahənin mütəxəssisidir. Hər insan bura düşə bilmir. Həyat təcrübəsi keçən insanlar burada olmalıdır. Cəmiyyət, dövlətlə bağlı önəmli məsələlər müzakirə olunur. Elə insanlar deputat olmalıdırlar ki, taleyüklü məsələlərin müzakirəsi zamanı düzgün qərar verə bilsinlər. Milli Məclis yaş senzi ilə müəyyən oluna bilməz. Parlament "cavan məclisi" deyil. Belə məsələlər çılğınlıqla, gənclik həvəsi ilə həll olunmur. Dünya praktikası göstərir ki, parlamentdə böyük təcrübəyə sahib olan təcrübəli insanlar olmalıdır".

❑ **Cavanşir ABBASLI**

# Ekspertdən müharibə proqnozu

## Elxan Şahinoğlu: "Yeni müharibə lokal deyil, regional xarakter daşıyacaq..."

**"Hazırda cəbhə bölgəsində vəziyyətin gərginləşməsindən narahat olmayan tərəf yoxdur. Əvvəlcə ABŞ-ın Minsk Qrupundakı həmsədri Ceyms Uorlik dedi ki, sülh sazişi imzalanmayanadək tərəflər müharibəyə başlamayacaqlarına dair öhdəlik götürməlidirlər. Daha sonra Rusiyanın xarici işlər naziri Sergey Lavrov Bakıya gələrək azərbaycanlı rəsmilərlə intensiv danışıqlar apardı".**

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu** "Yeni Müsavat"a son günlər cəbhədə baş verənləri şərh edərkən bunları söylədi. Ekspertə görə, hazırda Moskva da müharibənin əleyhinədir: "Çünki Kreml qorxur ki, bu müharibə onu çətin seçim qarşısında qoyacaq, Qərb və Türkiyə ilə münasibətlərdə əlavə gərginlik yaranacaq, həm də müharibənin Şimali Qafqaza sıçramasından ehtiyat edir. Bir neçə gün öncə isə bölgəyə ATƏT sədrinin şəxsi nümayəndəsi Andjey Kasprşik gəldi. O da tərəflərlə görüşür, vəziyyəti sabit məcrasına qaytarmağa çalışır. Bütün bu səylərə baxmayaraq, cəbhə bölgəsindəki vəziyyət gərgin olaraq qalır. Proses elə bir təhlükəli nöqtəyə gəlib çatıb ki, lokal toqquşmaların qarşısını almaq getdikcə çətinləşir".



Elxan Şahinoğlu

**E.Şahinoğlu həm Azərbaycan, həm də Ermənistanın bu gərgin vəziyyətdə hərbi təlimlərə start verməsini də təsadüf saymır:** "On minlərlə hərbçi, yüzlərlə təyyarə və hərbi texnika sərhəddə toplanıb. Vəziyyət elə bir nöqtəyə gəlib çatıb ki, hərbi təlimlər zamanı tərəflərdən birinin əsəbləri dözməsə və ağır artilleriya işə salınsa, müharibənin başlaması ehtimalı artacaq. Yəni mürəkkəb vəziyyətdir".

Ekspert xatırlatdı ki, Ermənistan Dağlıq Qarabağ ətrafındakı torpaqları qeyd-şərtsiz boşaltmaq istəmir, Azərbaycan isə bu durumla barışmır. Vasitəçilərin "atəşkəsə riayət edin" çağırışı isə o deməkdir ki, işğal davam etsin. Çünki bundan sonra vasitəçilərin faydalı işi görünmür.

**E.Şahinoğlu İrəvanın Azərbaycanla sərhəddəki bir qisim vətəndaşını evakuasiya etməsini də şərh etdi:** "Görünür Ermənistan Azərbaycanı həmin boşaldılan istiqamətlərdən vurmaq istəyir ki, cavab atəşi ilə itkisi az olsun. Bütün bu təxribatların küliyatı müharibə ehtimalını artıran amillərdəndir. 1990-cı illərin müharibəsindən fərqli olaraq yeni müharibə lokal deyil regional xarakter daşıyacaq. Müharibədə Azərbaycan və Ermənistandan başqa bu və ya digər şəkildə Rusiya, ABŞ, Türkiyə, Gürcüstan, Pakistan, İran, Səudiyyə Ərəbistanı kimi ölkələr də rol alacaq, ciddi maraq toqquşmaları qeydə alınacaq. Keçmiş müharibə zamanı tərəflər sovet texnikasından istifadə edirdi. Bu illərdə tərəflər modern silahlar əldə ediblər. Biz pulla almışıq, Ermənistana isə Rusiya peşkəş edib".

❑ **E.PAŞASOY**

# Boykot, yoxsa seçkidə iştirak?



**Azər RƏŞİDOĞLU**

**Seçkini boykot edəkmi? Hər seçkidə olduğu kimi, bu dəfə də əsas müzakirə mövzusu budur. Boykot tərəfdarları hesab edirlər ki, yaranmış situasiyada seçkidə iştirak hakimiyyətə demokratik seçki imitasiyası yaratmağa imkan verəcək. Digər tərəf isə hər şəraitdən istifadə etmək və daralmaqda olan protest elektoratını mobilizə etmək üçün seçkiyə getməyin üstünlüyünü bəyan edir. Bir sözlə, hər seçki ərəfəsində aparılan diskussiyalar yenidən aktuallıq kəsb edib. Hər iki arqumentin özlüyündə yaşamağa haqqı var.**

Qeyd edək ki, boykota adətən seçki qanunlarının hakim partiyaların xeyrinə işlədiyi, ədalətli seçki mühitinin olmadığı ölkələrdə əl atırlar. Bundan bir məqsəd də beynəlxalq ictimaiyyətin diqqətini bu adalətsizliklərə, geniş mənada hakimiyyətin legitimliyi məsələsinə çəkməkdir. Bu baxımdan, boykot tərəfdarları haqlıdırlar. Lakin tarix göstərir ki, çox nadir hallar nəzərə alınmamaqla, bu manevr real həyatda işləmir. Ötən seçkilərin təcrübəsi də sübut edir ki, boykotun nəticəsində hakim partiya istədiyini sərbəst şəkildə edir, çoxluq qazanır və hakimiyyət daha da gücləndirir. Seçkinin legitimliyini şübhə altında qoymaq da mümkün olmur. Müxalifətin ümid etdiyi beynəlxalq təzyiq ya olmur, ya da zəif olur və heç nəyi dəyişmir.

Azərbaycanda boykot taktikasından dəfələrlə istifadə edilib. 1998-ci ildə Azərbaycan müxalifətinin önəmli qismi prezident seçkisini boykot etsə də bu, böyük dövlətlərin seçkidə Heydər Əliyevi qalib kimi tanımalarına mane olmadı. Boykot tərəfdarları unutmamalıdırlar ki, Azərbaycan elə də mühüm ölkə deyillər ki, keçirilən seçkilər beynəlxalq diqqətə səbəb olsun. Əksinə daha böyük geostrateji əhəmiyyətə malik ölkələrdə boykot güclü danışıq aləti ola bilər. Azərbaycanda isə beynəlxalq dəstək iqtidarın yanında olub və neft maraqları demokratiyanı üstələyib.

Daha bir nüansa diqqət yetirmək lazım gəlir. Həftələrlə davam edən seçki sonrası etirazlara baxmayaraq, 2003-cü ildə Birləşmiş Ştatlar prezident seçkinin nəticələrini tanıdı. İlk dəfə idi ki, seçkidə müxalifətin qələbə qazanacağı aşkar gözlənilirdi. İqtidar istər daxildən, istərsə də xaricdən təzyiq altında idi. Lakin proseslər müxalifət üçün uğurlu olmadı.

2005-ci ildə seçkidə iştirak edən müxalifət bu seçkini rəsmi nəticələrə görə uduzsa da, ölkənin müəyyən rayonlarında açıq uğur qazandı və hakimiyyət öz opponentləri ilə hesablaşmağa hazırlaşırdı, lakin taktiki səhvlər bunun qarşısını aldı.

Hazırda Azərbaycanda dünya birliyi üçün az-çox əhəmiyyəti olan seçkilər keçiriləcək, odur ki, boykot ona çağıranın məğlubiyyəti ilə bitə bilər.

Ümumiyyətlə, boykot bir çox hallarda müxalifət üçün məğlubiyyətdən də ağır nəticələrə səbəb olur. Belə ki, hakimiyyət möhkəmlənir, elektoratın müxalifətə etimadı sarsılır, o parçalanaraq zəifləyir. Boykotun ən ağır nəticələrindən biri də hakimiyyətdə olan Yeni Azərbaycan Partiyasının güclənməsi və sərbəstləşməsi olur. Parlamentlərdəki əksəriyyət çoxluğa malik olmaq "yeni azərbaycanlı"lara istədikləri dəyişikliyini həyata keçirmək imkanı verir. Bu dəyişikliklərdən hakimiyyət öz yerini daha da gücləndirmək üçün faydalanır.

Digər tərəfdən, sərt idarəçiliyi olan iqtidarların olduqları ölkələrdə iştirak və boykot nəticə etibarilə elə də fərq etmir. Belə seçkilərdə kobud qanun pozuntuları, kütləvi saxtalaşdırmalar baş verir.

Üstəlik müxalifətin iştirakı seçkilərə bir növ legitimlik vermiş olur. İştirak etməmək isə hakim partiyanı möhkəmləndirir. Bu mənada iştirak etməmək seçkinin legitimlikdən məhrum edə bilər, lakin nəticəni dəyişə bilməz.

Sərt idarəçilikdə müxalifətin faydalanacağı çox az məqamlar var, lakin qətiyyətlə demək olar ki, boykot bunlardan biri deyil. Belə ki, boykot iqtidara seçkilərdə daha inamlı qələbə qazandırır. Digər tərəfdən, bəzən boykotun yaratdığı pat vəziyyətindəki boşluğu oliqarxiya doldurur.

**Ümumiyyətlə, boykotun effektli olması üçün iki amilin olması mühümdür: müxalifətin geniş xalq dəstəyinə malik olması və beynəlxalq ictimai rəyin təzyiqləri. Azərbaycanda bu amilin heç biri yetərincə deyil...**

YENİ MÜSAVAT
N 198 (6226) 8 sentyabr 2015

# "Seçkiyə ya Sabir bəy qatılmalıdı, ya da mən"

## Tənzilə Rüstəmxanlı: "İllərlə yığdığım nüfuzumu, hörmətimi millət vəkilliyi uğuruna fəda edə bilmərəm"

**"Azəri-Türk" Qadınlar Birliyinin sədri Tənzilə Rüstəmxanlının "Yeni Müsavat"a müsahibəsi.**



*- Tənzilə xanım, Azərbaycan siyasətində qadınların çəkisinin artacağı haqqında çox danışılır. Siz 1 noyabr parlament seçkisində şansınızı dəyərləndirməyi düşünürsüzmü?*

- Düşünürəm. Təcrübəm var - 2005-ci il parlament seçkisinə 22-ci Nəsimi seçki dairəsindən qatılmışdım. Çox gözəl kampaniya qurmuşduq, həvəslə işləyirdik. O seçkidə Sabir bəy də namizədliyini Yardımlıdan irəli sürmüşdü deyə, seçkiyə bir neçə gün qalmış geri çəkildim. 2010-cu ildə də seçkiyə Sabir bəy getdi. Bu dəfə isə o, özü təklif etdi ki, bu haqda düşünüm. Durumu bir daha dəyərləndirərik, uyğun bilsək, qatılarıq.

*- Seçkiqabağı vəziyyəti necə görürsünüz? Uzun illər siyasətdə olanlar belə deyir ki, qeyri-müəyyənlikdir.*

- Bu fikirlə razıyam. Mənzərə çoxları üçün tam aydın deyil. İndiki seçki prosesində mənə ən çox qəribə gələn bir çoxlarının parlamentdə təmsilçilik məsələsinə "olmazsa olmaz" kimi baxmasıdır. Hər il bir neçə dəfə Türkiyədə, Avropada türk dünyası ilə bağlı beynəlxalq konfranslarda oluram. Mənə "sayın vəkilim" deyə müraciət edirlər. Deyirəm, çox üzr istəyirəm, mən yox, yoldaşım millət vəkilidir. Cavab verirlər ki, olsun, siz bizim könlümüzün vəkilisiniz. Təbii, bunları eşitmək çox xoşdur. Ancaq millət vəkili olmaq mənim üçün məqsəd deyil, məqsədimə gedən yolda bir vasitədir. O kürsüyə millətimin, bütün türk dünyasının səsinin eşidilməsi üçün imkan kimi baxıram. Elələri var, Milli Məclisdə təmsilçiliyə var olmaları kimi baxırlar. Bir geriyə baxıb düşünmürlər ki, gör neçə ildir burdayıq, bu millət üçün nə etdik? Qohum-qardaşını düz-əməlli tanımayan, onlardan dəstək almayan adamlar millətə vəkillik etmək iddiasındadır. Zamanında getməyi bacarmaq lazımdı. Buna da ürək gərək. Bu işi xırda hesablara əyilməyən insanlar bacarar. Hər hansı bir işdə cəsarət, fədakarlıq, vaz keçə bilmək çox önəmlidir. Mənim Məclis haqqında ümumi düşüncələrim belədir. Yenə deyirəm, parlamentdə təmsilçilik istəyim var. Ancaq bu o demək deyil ki, mən illərlə yığdığım nüfuzumu, hörmətimi millət vəkilliyi uğuruna fəda edərəm. Atacağım addım məni xırdalayacaqsa, görmək istədiyim böyük işlərə kölgə salacaqsa, zamanında dayanmağı bacarmaq lazımdı, bunu edə bilmək üçünsə ərdəmli olmaq kərəkdir.

*- Sabir bəyin seçkiyə qatılmaq ehtimalı heç yoxdur? Əgər o, seçkiyə getsə, 2005-ci ildəki təcrübənizi təkrarlayıb geri çəkiləcəksiz?*

- İkimizin getməyimiz mümkün deyil. Olmaz. Bunu qadağan edən yazılı qanun yoxdur, ancaq biz düşünürük ki, siyasi mədəniyyət belə tələb edir. Seçkiyə ya o gedəcək, ya da mən. Bu seçkidə qadınlara daha çox şans tanınacağı ehtimalı yüksəkdir. Bu özü də böyük mədəniyyət tələb edir. 2005-ci il seçkisində bir məsələni müşahidə eləmişdim - kişilər siyasi mübarizədə qadınlara qarşı çox qəddar olurlar, heç bir halda ona məğlub olmaq istəmirlər. 22-ci dairədə 18 rəqibim vardı, cəmi biri qadın idi, o da sonradan geri çəkildi. 18 kişidən ləyaqətlə mübarizə aparanları da vardı, ancaq çoxlarının əlacı olsaydı məni bir qaşıq suda boğardılar. Kişilər qadın ona rəqib olmayanda onunla nəzakətli davranır, rəqib oldusa, atmadıqları çirkab qalmır, fəlakət dərəcəsində qəddarlıq nümayiş etdirirdilər. Təbliğat mitinqlərində heç zaman "mənə səs verin" ifadəsini işlətmirdim. İstəyirdim, ölkəyə seçki mədəniyyəti gəlsin, ona görə də deyirdim, könlünüz kimi istəyirsə, ona səs verin, amma seçkiyə mütləq gəlin, bu, sizin vətəndaşlıq görəvinizdir.

**"Ərdoğan Türkiyə prezidenti olaraq bədəli nə olursa-olsun bu savaşı durdurmamalı, Türkiyə torpağında PKK-nın kökünü kəsməlidir"**

*- Amma bütün bunlara baxmayaraq deyirsiniz, xanım namizədlərə çətin olacaq.*

- Mənə elə gəlir... Bir məsələyə də toxunmaq istəyirəm. Məclisdə qadınların olması yaxşıdı, təbii. Ancaq elə qadınlar da var, 5 ildə biz onların səsini eşitmədik, şəxsən mən çoxlarını üzdən belə tanımıram. Millətin səsi, sözçüsü olmaq missiyası daşıyan şəxs xalqın dərd-sərinə 5 il susqun qala bilərmi? Azərbaycanın ən böyük dərdi Qarabağdı, torpaqların işğalıdır. Atəşkəs olmasına baxmayaraq, şəhidlər veririk. Məclisdə Qarabağla, Ermənistanın işğalçı siyasəti ilə bağlı müzakirəni gündəmə gətirsələr, onlara kim mane olacaq? Və yaxud uydurma erməni soyqırımı haqqında bir təklif duydunuzmu?

*- Xeyr.*

- Qarabağı MM-də təmsil edənlər belə susur. Bu insanların hakimiyyətin siyasətini dilə gətirmək qabiliyyətləri belə yoxdursa, orada oturmalarının mənası nədir?

*- Noyabrın 1-də Türkiyədə də növbəti dəfə seçkidir. Qardaş ölkə ilə bağlı proqnozlarınız necədir?*

- Türkiyədəki seçkini bəlkə Azərbaycandakı seçkidən də həssaslıqla izləyirəm. Bunu yüz dəfə desək, yenə azdı - Türkiyə türk dövlətləri, millətləri üçün çox önəmli ölkədir. Azərbaycanın istiqrarı da ora bağlıdır, oradakı siyasi proseslərin türk millətinin xeyrinə olması bizim üçün həyatı önəm daşıyır. Türkiyədə bu gün türk milləti dardadır. Biz bu günlərdə öz millətimizin yanında olmaq üçün bacardığımızı etməliyik. Çünki biz darda olanda onlar bizə arxa, dayaq olub.

*- Ancaq bu gün həmin fədakarlıq olaylarına fərqli don geyindirmək istəyən, dəstəyi işğal kimi qələmə vermək istəyənlər peyda olub. Məqsəd nədir sizcə?*

- Məqsəd Azərbaycanı təkləmək, iki qardaş xalqın arasına şübhə toxumları əkməkdir. Bunun adı nankorluqdur. Sentyabr ayının 15-də Bakının daşnak-bolşevik birləşmələrindən qurtuluşunun 97-ci ildönümünü qeyd edəcəyik. Osmanlının son və ən gücsüz dönəmlərində belə Ənvər Paşanın milli şüuru Nuru Paşanın komandanlığında bura Qafqaz İslam Ordusu göndərdi. Azərbaycan Xalq Cümhuriyyətinin "imdad" çağırışına səs verən ordunu işğalçı adlandırmaq necə bir vicdansızlıqdır? Qafqaz İslam Ordusu bizi qətliamdan xilas eləyib. Əmin olun, bunu yazan türk, azərbaycanlı ola bilməz, varsa deməli ruhunu şeytana satmış birisidir. Onun qanında türkü qətl edən ermənini qanı var. Bu adamların para qaynağını araşdırsaq Azərbaycan, türk düşməninə çıxacağımıza zərrə qədər şübhəm yoxdu. Qafqaz İslam Ordusu olmasaydı, Bakı türklərdən təmizlənəcəkdi. Həmin dönəmdə ermənilər, bolşeviklər bütün Azərbaycan boyu müsəlman türkləri məhv edirdi. Neçə-neçə toplu məzarlıqlarımız gizlədilən, itirilmək istənən tariximiz deyilmi? Mənim nəslim o qətliamlarda pərən-pərən düşüb. Türkiyədə də bir Amasya var. Orada nə qədər qohumlarımız yaşayır. Burdakı Amsyada erməni zülmü görənlər Anadoluya yol alıb, orda yurd-yuva salıb, orda da bir Amasya qurublar. Erməni zülmü olmasaydı, niyə insanlarımız isti ocaqlarını qoyub çöllərə düşürdü ki? Nənən ömrünün sonuna qədər o zülmlərdən danışırdı - torplaqları boşaltmaq üçün ermənilər türkləri işgəncə ilə öldürürdülər. İnsanların belinə qaynar samovar bağlayırdılar, hamilələrin qarnını kəsib körpələrini çıxarırdılar, balanı ananın gözlərinin önündə öldürürdülər, insanları məscidlərə yığıb yandırırdılar. Bunları türk ordusu edirdi? Qafqaz İslam Ordusu gəlməsəydi, bu zülmü durdurmaq mümkünsüz idi. Bu faktları görməzdən gəlmək vicdansızlıq, nankorluq, türk düşmənliyidir. Anadoludan qardaş harayına gələn insanların ruhu onlara qənim olsun. Qafqaz İslam Ordusunun keçdiyi torpaqlarda şəhid olan gənclərin məzarını görəndə baş əyməmək, duyğulanmamaq mümkün deyil. Bu hissi keçirməyən insan bu millətə yaddır. Bu torpağı o gənc ömürlər bizə Vətən edib. Biz nəfəs aldıqca onlara minnətdar olmalıyıq. Bu gün şərəfi tariximizi yaradanlara dil uzatmaq istəyən nankorlar bilsinlər ki, bu millətin yaddaşı güclüdür - unutmayıb, unutmayacaq da. Son 80-90 ildə Azərbaycan tarixini çox zaman bizdən olmayanlar yazıb, nə qədər saxta sənədlər düzəldib gerçəyi gizlədiblər. Amma zaman hər şeyin üzərindən o saxta örtüyü götürüb. Ona görə heç özlərinə əziyyət verməsinlər. Azərbaycanla Türkiyənin arasını vurmaq, iki qardaş arasında gərginlik yaratmaq mümkün olmayacaq.

*- Türkiyə də yaxın tarixin ən çətin dönəmini yaşayır. Nədir gözləntiləriniz?*



**"Parlamentdə oturanların, bu gün də yenidən o kürsüyə can atanların çoxu şəxsi bizneslərini mandatın himayəsinə almaq, toxunulmazlıqlarını təmin etmək üçün seçilmək istəyir"**

- Türkiyə tarix boyu çox çətin dönəmlərdən keçib. Bunu da adladacaq. Bu gün Türkiyədə türklərin durumu Qurtuluş Savaşı dönəmindəkindən daha çətindi. Onda düşmən bilinənən düşmən idi, qüvvələr üz-üzəydi. İndi düşmən içəridədi, başdadı. Türkiyə dövlətinin bir çox vəzifələri işğal altındadır. Bu gün Türkiyə gündəmini yaxından izlədikcə dəhşətə gəlməmək mümkün deyil. Bir millətin nə qədər xain "aydını" olar? Ölkədə "türk" sözünə düşmənçilik ən yüksək həddə çatıb. Fikirləri dövlətin, bayrağın adından "türk" sözünü silməkdir. PKK son 12 ildə özünün ən güclü dönəmini yaşadı, olmadığı qədər silaha sahib oldu, Türkiyə Böyük Millət Məclisinə qədər gələ bildi. PKK heç bir dönəmində bu qədər azğınlaşmamışdı. Buna göz yumuldu, bəzən hətta şərait yaradıldı. "Açılım", "çözüm süreci" adı ilə PKK-nı Türkiyə siyasətinə gətirmək böyük yanlış, türk millətinə namərdcə zərbə idi. Düşmən düşməndi, onu adıyla çağırmaq lazımdı. Türkiyə iqtidarının dilindən "Osmanlı" sözü düşmür. PKK-nın etdiyinin adı üsyandı. Osmanlı üsyanı necə yatırırdı? İndi hamısı dar ağacından asılmışdı. Dünyanın hər yerində, bütün quruluşlarında dövlətə qarşı çıxmaq silah gücünə dəf olunur. Türkiyə qərarlı olmalıdır. HDP PKK-nın siyasi qanadıdır. Seçim sonuclarını görəndə mən dəhşətə gəldim - İstanbulda HDP-ə MHP-dən daha çox səs qazandırdılar. Onlar dağda qatillik məktəbi keçib, türk əsgərinə silah tuşlayanlardır. Bu mələk cildinə girmiş qatillərin iç üzünü millət bilir.

*- Siz 7 iyun seçkisindən sonra MHP sədri Dövlət Baxçalı ilə görüşmüsünüz. Sizcə, niyə Türkiyədə hökumət qurmaq mümkün olmadı?*

- Çünki AKP-nin belə bir istəyi yox idi. AKP ölkəni qana boğmaq bahasına olsa da seçkiyə getmək, yenidən tək hakimiyyət olmaq istəyirdi. Biz Devlet bəylə bu haqda danışdıq. Əslində bu gün Ərdoğanın PKK-ya savaş açması da onun öz maraqlarının tapdandığına görədir. Görünür, prezident HDP və PKK-dan istədiyini ala bilmədi. Hər halda, bu savaşda sayın Ərdoğana qətiyyət arzulayıram. Əməliyyatlar davam etməli, PKK məhv edilməlidir. Ərdoğan Türkiyə prezidenti olaraq bədəli nə olursa-olsun bu savaşı durdurmamalı, Türkiyə torpağında PKK-nın kökünü kəsməlidir. Onsuz da hər gün nə qədər şəhidlər verir Türkiyə. Bu savaşı yarıda qoymaq onların qanını batırmaqdı.

❑ **Aygün MURADXANLI**

***P.S.** Müsahibənin tam variantını musavat.com-dan oxuya bilərsiniz*

**Azərbaycanda növbəti "diplomat qalmaqalı" baş verib. Bu dəfə Avstraliyadakı səfirliyimizin əməkdaşı Anar Həsənov XİN sistemindəki qanunsuzluqlar barədə açıqlamalar yayıb. Artıq XİN hadisəyə münasibət bildirib və şikayət edən şəxsin işdən qovulduğunu açıqlayıb. XİN mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev mətbuata bildirib ki, Azərbaycanın Avstraliyadakı səfirliyinin keçmiş əməkdaşı Anar Həsənov fəaliyyət müddətində xidmətdə yol verdiyi qüsurlara görə işdən qovulub.**




# XİN-də yeni qalmaqal - daha bir diplomatımız xarici ölkəyə sığındı

## Avstraliyadakı səfirliyin əməkdaşı Anar Həsənov korrupsiya faktlarını açıqladığı üçün cəzalandırıldığını, XİN isə diplomatın xidmət qaydalarını pozduğu üçün işdən kənarlaşdırıldığını iddia edir

**Qeyd edək ki, mətbuatda artıq Anar Həsənovun sığınacaq üçün Avstraliya hökumətinə müraciət etməsi barədə məlumatlar yayılıb.** A.Həsənov özü isə yerli mətbuata çalışdığı səfirliyin və XİN sisteminin işində rastlaşdığı korrupsiya faktları ilə bağlı məlumatlar ötürüb. Redaksiyamıza göndərdiyi məktubunda A.Həsənov qeyd edir ki, Azərbaycanın Avstraliyadakı səfiri Rövşən Cəmşidovun və səfirliyin mühasibinin külli miqdarda dövlət vəsaitini mənimsəmələri və digər qanunsuz əməlləri haqqında sübutları Prezident Administrasiyası və Xarici İşlər Nazirliyi başda olmaqla digər dövlət qurumlarına göndərib.

**Məktubda Rövşən Cəmşidov və səfirliyin mühasibinin 2013-cü ilin avqust ayından indiyə qədər dövlətin ən azı 64.800 ABŞ dollarından çox vəsaiti mənimsədiyi qeyd olunur.** Səfirliyin maliyyə hesabatlarında aylıq məvacibi 2700 ABŞ dolları olan saxta katibə ştatı göstərilib. Bundan başqa səfirliyin mühasibi öz diplomatik imtiyazından sui-istifadə edərək Avstraliya dövləti tərəfindən səfirlik əməkdaşları üçün güzəştli qiymətlərlə (gömrük vergisindən azad) satılan külli miqdarda içki və siqaret məhsullarını alaraq daha sonra tamah məqsədilə bazar qiymətləri ilə satıb. Qaydalara əsasən hər diplomata 6 ay ərzində 100 şüşədən çox spirtli içki, 100 blokdan çox (hər blokda 10 qutu) siqaret satıla bilər. Diplomatik imtiyazla 1 litr viskini 15 dollara almaq mümkündür. Onun bazar qiyməti isə orta hesabla 40 dollardır. Bir qutu siqaretin diplomatik imtiyazla qiyməti təqribən 5 dollar, bazar qiyməti isə 20 dollardır. Məlumdur ki, bir insanın 6 ay ərzində hər gün 5 qutu siqaret çəkməsi və 1 litrdən də çox viski içməsi mümkün deyil. Mühasib isə nəinki öz şəxsi payına düşən içki və siqaretləri, hətta səfirliyin rəsmi istifadəsi üçün də nəzərdə tutulmuş daha çox malları diplomatik nümayəndəliyi öz şəxsi qazanc müəssisəsi kimi istifadə edərək satmış və üst-üstə təqribən 30 min dollar mənimsəmişdir.

**Bundan başqa səfirliyin mühasibinin Kanberradakı ev ünvanını və əlaqə vasitələrini bir turist firmasının ofis ünvanı kimi göstərdiyi kimi faktlar yer alır.**

A.Həsənov yazır ki, qeyd olunan faktlarla bağlı müvafiq tədbirlərin görüləcəyini gözləsə də, xarici işlər naziri E.Məmmədyarov bu korrupsiya faktlarına məhəl qoymayıb və yaxın dost olduğu R.Cəmşidovun məktublarını əsas götürərək onun geri çağırılması ilə bağlı əmr imzalayıb: "Məmmədyarovun imzaladığı əmrə görə səfirlikdəki korrupsiya faktlarını ortaya çıxartmış əməkdaş ya ana olmağa hazırlaşan həyat yoldaşını uzaq ölkədə tək buraxıb geri qayıtmalı, ya da hələ dünyaya gəlməmiş körpənin həyatını riskə qoyaraq həyat yoldaşı ilə birlikdə uzaq məsafəni təyyarədə uçmalı idi. Beləliklə, Azərbaycanın xarici işləri naziri olan bu şəxs nəinki səfirin və mühasibin korrupsiya əməlləri ilə bağlı tədbir görməyərək bunun əvəzində həmin cinayətlərin üstünü açanın özünü hədəf seçmiş, etinasızlıq və soyuqqanlılıqla doğulmamış körpənin həyatını təhlükədə qoymaq kimi dəhşətli bir əməl törətmişdir. Bu hərəkətə insanlığa qarşı cinayətdən başqa ad tapmaq çox çətindir".

**A.Həsənov şikayətini ombdusmana, Prezident Administrasiyasına və digər qurumlara göndərilsə də, heç bir nəticə olmayıb.** Ancaq maraqlıdır ki, keçmiş 3-cü katib müraciətlərinin PA-da şöbə müdiri Novruz Məmmədov tərəfindən nəzarətə götürüldüyü haqda məlumat aldığını deyir: "Bu müraciətdən bir müddət sonra Prezident Administrasiyasından zəng edilərək Novruz Məmmədovun bu məsələni araşdırmağı tapşırdığı bildirilmiş və məsələ ilə bağlı məlumat verilməsi istənilib.

**A.Həsənov yazır ki, Prezident Administrasiyası əməkdaşının telefon zəngindən sonra səfir R.Cəmşidov və səfirliyin sürücüsü vasitəsilə ona qarşı təzyiqlər edib, daha sonra onu yaşadığı mənzildən çıxarıblar.** Əlacsız qalan səfirlik əməkdaşı isə evsizlərə, kimsəsizlərə, narkotik maddə və alkoqol asılılığı olan adamlara yardım göstərən humanitar təşkilatlara üz tutmalı olublar.

Daha sonra yazısında prezident İlham Əliyevə müraciət edən Anar Həsənov ölkə prezidentinin dəfələrlə ictimaiyyəti korrupsiyaya qarşı mübarizədə dövlət qurumlarını məlumatlandırmağa çağırdığını xatırladır. A.Həsənov Avstraliyadakı səfir R.Cəmşidovun fəaliyyəti ilə bağlı XİN, Baş Prokurorluq, MTN, Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Komissiyası, Maliyyə Nazirliyi, ombudsmanla yanaşı Prezident Administrasiyasına göndərdiyi məktubların ünvana çatdırılmadığını qeyd edir: "Elmar Məmmədyarov öz xidməti vəzifəsinin tələblərini pozaraq təqdim etdiyim korrupsiya faktları ilə bağlı araşdırma aparılması ilə bağlı heç bir addım atmayaraq əvəzində mənim özümü hədəf seçmişdir. O, rəhbərlik etdiyi quruma hesabat verən səfirlikdə baş verən korrupsiya əməllərinə məhəl qoymayaraq R.Cəmşidovun geri çağırılması üçün sizə məlumat vermək və öz qohumu olduğu bildirilən mühasibi vəzifə səlahiyyətlərinə uyğun olaraq geri çağırmaq əvəzinə həmin addımı mənə qarşı atmışdır. Bu şəxsin qol qoyduğu ən dəhşətli cinayət isə mənim ana olmağa hazırlaşan həyat yoldaşımın hamiləliyində olan fəsada görə təyyarədə uçmasına həkim tərəfindən icazə verilməməsini bildiyi halda buna əhəmiyyət verməyərək səfirlikdən geri çağırılmağıma dair əmr imzalamasıdır. Tərəfimdən XİN-in kadrlar idarəsinin əməkdaşı ilə telefon əlaqəsi yaradılaraq üstünü açdığım korrupsiya əməllərinə məhəl qoyulmaması bir tərəfə qalsın, həyat yoldaşımın vəziyyəti ilə bağlı həkim rəyini onlara göndərməyimə baxmayaraq nə üçün belə vicdandan, insafdan uzaq addım atılmasının səbəbi soruşulduqda o, "biz nə edə bilərik, nazir dedi ki, belə əmr hazırlayın" cavabını verib.

**Qeyd edək ki, Arif Məmmədov olayından fərqli olaraq Anar Həsənov siyasi müxalifət iddiası etmir, dövlət başçısından dəstək umur. Ancaq son addımları onu göstərir ki, A.Əliyev kimi A.Həsənov da xarici ölkəyə sığınacaq. Bu isə özlüyündə mənfi presedent yaradır. Səfirliklərdə, diplomatik korpusda xidmət edən, haqsızlıqla üzləşən diplomatlarımız çarəni xarici ölkələrə sığınmaqda görür.**

❑ KƏNAN

# Rixter şkalası və RİH şkalası



Samir SARI

**Əməkdaşımız bu günlərdə ata yurdundan, Rixter şkalası ilə 7 ballıq zəlzələ şoku yaşayan Şəkidən qayıdıb. Keçib soruşuram ki, Şəkidə vəziyyət necədir, dağıntı çoxdurmu, ölüm-itim olubmu, avtoşoklar (yaxud da avterşok - bu terminləri hamı qarışdırır artıq) davam edirmi.**

Həmkarımız deyir, yox, vallah, heç bir dağıntı yoxdur, eləcə, kəndlərdə bəzi evlər zədələnib, çatlayıb, amma şəhərin özündə salamatlıqdır.

İndi oturub düşünürəm, bu necə zəlzələdir axı, bir yanı Ərdəbil, Lənkəran, o yanı Ərzurum, İrəvan, Dərbənd, Azərbaycanın bütün keçmiş və indiki ərazilərində hiss edilib, amma episentrində heç bir dağıntı olmayıb. Bu işdə bir iş var.

**Versiyalar belədir:**

**1.** Ərdəbil və Ərzurumdakı yeraltı təkanlar Şəki zəlzələsinin təsiri olmayıb, avtonom zəlzələ olub, sırf təsadüfən eyni saata düşüb.

**2.** Şəkidəki zəlzələ heç də Rixter şkalası ilə 7, hətta heç 5-6 bal gücündə də olmayıb, 4,5-4,9 bal gücündə bir şey olub, ona görə də dağıntı törətməyib.

**3.** Episentri Şəkinin kəndlərinə düşən zəlzələ həqiqətən 7 bal olub, ancaq tikililər möhkəm olduğundan zəlzələ dağınıtya səbəb olmayıb, tələfat törətməyib.

Başlayaq 3-cü versiyadan. Həqiqətən də rayon yerlərində binaları möhkəm tikirlər, əhəngi, göy sementi, çınqılı, qumu qarışdırır, çay daşınndan yarım metr qalınlığı olan divarlar hörürlər, üstəlik, tikililər 1-2 mərtəbədən artıq olmur, yer tərpənəndə də bina titrəyişə tab gətirir. Yoxsa bəzi yerlərdə panelləri qalaqlayırlar üst-üstə, ana torpaq bir az silkələnən kimi göydələnlər uçub tökülür, camaat qalır altında.

**Bəzi müsəlman ölkələrində baş verən zəlzələlər zamanı bütün şəhərin darmadağın olduğu vaxt qədim məscidin dağılıb-çökməməsinin sirri də elə bundadır. Onu zəif sementli paneldən tikməyiblər, ona görə. Əhəngdən, çay daşından, sal qayalardan tikiblər, o da ildən-ilə bərkiyən şeydir.**

Ancaq hər halda Şəkidəki zəlzələ 7 bal gücündə olsaydı, uçurmağa bir şey tapardı. Məsələn, məşhur Xan sarayı tam uçmasa da, bir balaca zədələnərdi. Çünki o təxminən 225 il əvvəl tikilib, "Həm ziyarət, həm ticarət" filmindən tanıdığımız Mustafa müəllimin sözü olmasın, onun tikintisində bir mismar belə işlənməyib.

Belə çıxır ki, biz daha çox 2-ci versiyadan yapışmalıyıq. Tanış-biliş də deyir ki, yox, Şəkidəki zəlzələ heç də 7 bal gücündə deyildi. Ağzında 7 bal deyirsən, Yaponiyada sunami yaradan, AES dağıdan 7 bal Şəkidə tövlə dağıtmırsa, deməк, əslində 7 bal deyil.

**Bəs onda rəsmi xəbərlərdə niyə elə getdi, niyə dedilər ki, Şəkidə 7 bal gücündə zəlzələ olub?**

Bunu bilməyə nə var? Biz hələ sovet dövründə rəqəmləri şişirtməyə öyrəncəliyik və şişirtmə rəqəmlərdən babat pul qazanmağı yaxşı bacarırıq. Şəkidə Rixter şkalası ilə 7 bal gücündə zəlzələ olmasa da, RİH şkalası ilə o qədər olub və yerli məmurlar "N" qədər evi "zəlzələdən ziyan çəkmiş" kimi sənədləşdirib təmir pulu yeyəcəklər.

Əsas məsələ odur ki, təbii fəlakət olsun. Zəlzələ, qasırğa, dolu, sürüşmə - fərq etməz. Bizimkilər ondan mütləq pul çıxaracaqlar. Dövlətin malı dənizdir... Dəniz demişkən, yaxşı ki, bizdə dəniz kükrəyib sahili basmır, yoxsa bizim məmurlar 1-2 metrl dalğanı İndoneziya sunamisi kimi sənədləşdirib 50-60 milyon pul çırpışdırarlar.

Nəhayət, 3-cü versiya barədə. Eyni gündə həm Ərdəbildə, həm də Şəkidə zəlzələ olması bir daha təsdiqləyir ki, gərək zəlzələ mütəxəssislərinin dediyini qəribçiliyə salmayaq, biz doğrudan da nəhəng yeraltı uçurumun - Benioff zonasının qırağındayıq. Gərək ehtiyatlı olaq, bəzi meqapolislərə baxıb tırkaya getməyək. Ya gərək seysmik aktivliyi olan yerlərdə göydələn-filan tikməyək, ya da tiksək, etibarlı tikək, tikintidə əhəng-sement də işlədək.

**Ümumiyyətlə, təcrübə göstərir ki, seysmik zonalarda tikinti ilə səy adamlar məşğul olmamalıdır.**

**"Yeni Azərbaycan Partiyasının parlament seçkilərində iştirak edəcək namizədlərinin siyahısı sentyabrın 10-da açıqlanacaq". Bunu YAP icra katibinin müavini, deputat Siyavuş Novruzov axar.az-a bildirib. Qeyd edək ki, S.Novruzov ötən həftənin cümə günü qəzetimizə açıqlamasında siyahının həftəsonunadək açıqlanacağını bildirmişdi. YAP funksioneri xırda detallar istisna olmaqla siyahının hazır olduğunu demişdi.**

# Hakim partiyanın siyahısı qocalarla gəncləri üz-üzə qoyub

## Köhnə YAP-çılar narazıdır; Eldar Sabiroğludan sonra Əli Əlirzayevlə Şahlar Əsgərov da üzə çıxdı; Siyavuş Novruzovdan həmkarına sərt reaksiya gəldi; son siyahı 10 sentyabrda açıqlana bilər

**"Yeni Müsavat"ın əldə etdiyi məlumata görə, siyahının yekun variantının açıqlanması ölkə prezidenti, YAP sədri İlham Əliyevdən asılıdır.** Hakim partiyanın İdarə Heyəti məsələni müzakirə etdikdən sonra namizədlərdən ibarət 300 nəfərlik siyahını tərtib edib və İlham Əliyevin masasının üzərinə qoyulub. İddialara görə, ölkə başçısı ehtiyat namizədlərin də yer aldığı bu zəngin siyahıdan 125 nəfərin namizədliyi üzərində dayanandan sonra yekun qərar açıqlanacaq.

Siyahının açıqlanmaması bütün siyasi proseslərlə maraqlanan, seçkiyə bu və ya digər şəkildə aidiyyəti olan şəxslər və çevrələri intizarda saxlayıb. Əksəriyyət YAP-ın siyahısını gözlədiyini gizlətmir. Siyahının gecikdirilməsi ilə bağlı ən müxtəlif versiyalar səslənir. İddialardan biri YAP-ın müxalifət partiyalarının tam olaraq namizədlərini açıqlamasını gözləməsidir. Başqa bir iddia isə budur ki, hakim partiya ölkənin siyasi həyatının qaynarlaşmasından ehtiyat edir. Buna görə də siyahının açıqlanmasını maksimum uzadır.

YAP-ın siyahısı hələ açıqlanmadığı halda bu mövzu nəinki müxalif çevrələrdə, hətta hakim partiyanın özündə də ciddi canlanma yaradıb. Xüsusilə də hakim partiyanın stajlı nümayəndələri narazılıqlarını ifadə etməyə başlayıblar. Bir neçə gün əvvəl Eldar Sabiroğlu mediaya açıqlamasında hakim partiyada onu sevməyənlərin olduğunu dilə gətirmişdi. S.Novruzov isə əvəzində həmkarından fikrini konkretləşdirməyi istədi.

**Ardınca YAP-ın Səbayel rayon təşkilatı Şurasının üzvü Əli Əlirzayevdən** ittihamlar eşidildi. Qocaman YAP-çı deputat olmaq istədiyini də etiraf etdi, ancaq partiyadan dəstək görmədiyini vurğuladı. S.Novruzov isə APA-ya açıqlamasında bildirib ki, partiya bir neçə dəfə onun namizədliyini dəstəkləyib, sonuncu dəfə də dəstəkləməsinə baxmayaraq, seçicilər onu seçməyib, istəməyiblər. O deyib ki, YAP həmişə öz qurucularına diqqət göstərir və lazımı dəstəyi verir: "2005-ci ildə YAP lazımı dəstəyi göstərdi, amma Əli Əlirzayev seçilmədi. Dünya praktikasında da belə təcrübə var ki, bir namizəd bir dairədən seçilmirsə, onun namizədliyi təkrar irəli sürülmür. Artıq burda seçicilərin münasibətindən söhbət gedir, yəni onu seçmədilər. Ona görə də burada partiyanı günahlandırmaq düzgün deyil... Bundan başqa, YAP hələ siyahısını açıqlamayıb, bəlkə onun da adı var, niyə siyahı açıqlanmamış belə açıqlamalar verir? Deməli özünə arxayın deyil".



Bunun ardınca daha bir tanınmış YAP-çı mediada göründü. "Parlament seçkilərində namizədliyimi irəli sürməyə ehtiyac duymuram". Bunu Modern.az-a açıqlamasında **YAP-ın sabiq deputatı, məşhur "91-lər"dən olan Şahlar Əsgərov** deyib. O bildirib ki, builki parlament seçkilərində iştirak etmək fikri yoxdur: "Mən iki dəfə seçkilərdə partiyanın namizədi kimi seçilmişəm. Birinci dəfə partiyanın proporsional siyahısında ilk sıralarda olmuşam. İkinci dəfə isə partiyanın dəstəyi ilə seçilmişəm. Qarşıda görüləcək işlərim çoxdur. Kitab üzərində işləyirəm. Ona görə də builki seçkilərə qatılmaq kimi fikrim yoxdur".

**"Seçki siyahısında namizədlərdən kimi görmək istərdiniz" sualına isə Ş.Əsgərov belə cavab verib:** "Mətbuatda da bir neçə dəfə demişəm və bununla bağlı qəti qərarım var. Deputat seçilən şəxs parlamentin qarşısında duran sualları həll etməyə qadir olan insanlardan təşkil olunmalıdır. Orada gedib, sadəcə düyməni basmaqla kifayətlənməməli, prosesin passiv tərəfi olmamalıdır. Deputat qanunvericiliyin obyekti yox, subyekti olmalıdır. O həm də bütün prosesləri yaxından izləməlidir".

Göründüyü kimi, köhnə YAP-çılar partiya rəhbərliyindən incik görünürlər.

Aktual.az-a daxil olan məlumata görə, YAP-ın siyahısında xeyli sayda yeni adlar var. Hazırda fəaliyyət göstərən bəzi deputatların isə siyahıda yer almadığı da gələn xəbərlər arasındadır. Hakim partiyanın xətti ilə parlamentə mandat qazanan daha dörd deputat bu dəfə YAP-ın siyahısında yer almayıb.

Bunlardan biri 120 saylı Cəbrayıl-Qubadlı seçki dairəsini parlamentdə təmsil edən **deputat, professor Astan Şahverdiyevdir**. Azərbaycan Texniki Universitetində kafedra müdiri işləyən, 68 yaşlı A.Şahverdiyevin özünün də bundan xəbəri var.

11 saylı Qaradağ seçki dairəsini parlamentdə təmsil edən **Ağalar Vəliyevin** də adı YAP-ın siyahısında yer almayıb.

55 saylı Xaçmaz şəhər seçki dairəsini təmsil edən deputat **Arif Əşfərov** da hakim partiyanın siyahısında kənarda qalıb. Deputatlıq fəaliyyəti boyunca heç bir aktivliyi müşahidə olunmayan A.Əşrəfovun məhz bu səbəbdən siyahıda yer almadığı deyilir.

57 saylı Kürdəmir seçki dairəsini təmsil edən **Fərhad Qəribovun** adına da hakim partiyanın siyahında rast gəlmək olmur. Biznes fəaliyyəti ilə məşğul olan deputatın özünün də bundan xəbərdar olduğu deyilir.

Heç şübhəsiz YAP-ın siyahısından kənarda qalan digər deputatlar da var. Bu barədə isə biz bir neçə gün sonra, hakim partiya namizədlər siyahısını elan etdikdən sonra xəbər tutacağıq.

**Bütün bu məsələlərlə əlaqədar S.Novruzovun mövqeyini öyrənmək istədik. Lakin "Yeni Müsavat"a açıqlamasında yalnız bunu bildirdi:** "Siyahı açıqlananda hər şey aydın olacaq, gözləyin".

**❑ Cavid TURAN**

# Həmkarları Rauf Mirqədirovla bağlı prezidentə müraciət edə bilər

## Jurnalistin sonuncu dəfə həbs müddəti uzadılıb; həmkarları onun günahsız həbsinə inanırlar

**"Ayna-Zerkalo" qəzetinin əməkdaşı Rauf Mirqədirovun həbsindən 17 aya yaxın müddət keçir. Dövlətə xəyanətdə ittiham edilən jurnalist barədə hələ də məhkəmə hökmü çıxarılmayıb. Onun həbs müddəti daha iki ay uzadılıb. Bu o deməkdir ki, jurnalistin məhkəməsi noyabrın əvvəllərində başlaya bilər.**

**R.Mirqədirovun vəkili Elmar Süleymanov** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, bu, sonuncu dəfə həbs müddətinin uzadılmasıdır: "İstintaq bu müddətdə bitməlidir. Kifayət qədər geniş cinayət işi materialıdır. Bu maddə üzrə təkcə Mirqədirov təqsirləndirilmir. Əlavə iki şəxs də var. Həbs müddətinin uzadılmasına Rauf Mirqədirov narazılığını bildirdi. O, ədalət mühakiməsini gözləyir. Təəssüflər olsun ki, hər dəfə gözləntilər puça çıxır. Real vəsatətlər qaldırırıq. Amma obyektiv baxılma olmur. Səhhəti normaldır. Vaxtaşırı ağrıları olur. Baş və göz ağrıları, təzyiqin düşməsi halları baş verir. Bu da istər-istəməz təsir edir".

R.Mirqədirovun jurnalist həmkarları onun səhhəti və uzun müddət həbsxanada saxlanılmasından narahatdırlar. Onun azadlığa çıxmasında yeganə çıxış yolu kimi, "ev dustaqlığı"na buraxılması ilə bağlı ölkə başçısına müraciət etməyi görürlər. Artıq bu təşəbbüslərlə çıxış edənlər də var.

Təşəbbüsü irəli sürənlərdən biri - **uzun müddət Mirqədirovla bir yerdə işləmiş, tanınmış jurnalist Azər Rəşidoğlu** bildirdi ki, mətbuat bu məsələdə həmrəylik nümayiş etdirməlidir: "Rauf Mirqədirovun istintaqında şahid kimi dindirildiyimə görə, bu məsələnin detalları ilə bağlı danışmaq mənə qadağan edilib. Onu deyə bilərəm ki, Rauf müəllim Azərbaycanın ən parlaq və vətənpərvər ziyalılarındandır. Onun dövlətə xəyanət etməsi fikri ağlasığmazdır. Ermənilərlə debatda Rauf Azərbaycanın mövqeyini ardıcıl və peşəkarlıqla müdafiə edib. Onu Qarabağ danışıqlarına ekspert kimi cəlb etmək daha məqbul olardı. Rauf Mirqədirov çağdaş jurnalistikanın yaradıcılarından biridir. Odur ki, mətbuat onun ev dustaqlığına



Rauf Mirqədirov

buraxılması təklifi ilə çıxış etməlidir. Belə bir təşəbbüs yaranmış vəziyyətdə çıxış yollarından biridir".

**"Ayna-Zerkalo" qəzetinin baş redaktoru Elçin Şıxlı** Mirqədirovun onun üçün ən dəyərli insanlardan biri olduğunu qeyd etdi: "Rauf dostum, jurnalist həmkarım, Azərbaycanın Qarabağla bağlı jurnalistikasının əsas nümayəndələrindən biri kimi dəyərli insandır. Onun azadlığa buraxılmasının tam tərəfdarıyam. Əminəm ki, onun heç bir günahı yoxdur. Sadəcə olaraq, təəssüf ki, hadisələr belə gətirdi. Rauf ağır ittihamla müvəqqəti həbs olunub. Onun ya günahını sübut edib cəzasını verməlidirlər, ya da azad etməlidirlər. Amma nəzərə alaq ki, Raufun sübut ediləsi heç bir günahı yoxdur. Əvvəllər sizin dediyiniz tərzdə, yəni zaminə buraxılması üçün bir neçə həmkarlarla müraciət etməyi düşündük. Amma alınmadı. Əgər belə bir təşəbbüs olarsa, mən öndə getməyə hazıram. Onu həbsdə saxlamaqla, ermənilərin əl-ayaqlarını açmışıq. Hesab edirəm ki, Rauf zaminə buraxılsa, bu çox gözəl olardı".

**"Xural" qəzetinin baş redaktoru Əvəz Zeynallı** R.Mirqədirovun həbsinin ilk günlərindən sarsıldığını bildirdi: "Rauf həbs olunarkən həbsxanada idim. Çox təsirləndim. O, Azərbaycan mətbuatının ən önəmli analitiklərindən biridir. Jurnalist heç zaman 274-cü maddə ilə ittiham oluna bilməz. Xüsusilə, analitik jurnalistikanın nümayəndəsi isə heç zaman düşmən ölkəyə gedə, ən təhlükəli sandığımız şəxslərdən müsahibə götürə bilər. Heç bir halda 274-cü maddə ilə ittiham olunmaz. Rauf bəyə qarşı bütün istiqamətlərdə dəstək istəməyə hazıram. İndiyə qədər daim dəstəkləmişəm. Yazılarımda daim vurğulayıram. İrəli sürülən maddə, saxlandığı yer çox ağırdır. Onun saxlanıldığı yerdə olmuşam. Bilirəm ki, nəsə etmək insanın əleyhinə də işləyə bilər. Amma istənilən halda mətbuat hansısa təşəbbüs irəli sürsə, ön sıralarda olacam. Çünki, Rauf Mirqədirov mətbuatımızın tarixinə düşəcək sanballı yazarlardan biridir. Ona bu maddə ilə ittiham olunmaq yaraşmır. Azərbaycan dövlətinə də yaraşmır ki, onu bu maddə ilə ittiham etsin. Zaminə buraxılması ilə bağlı müraciət olarsa, o kampaniyanı aparanlardan biri mən olacam. Lazım olarsa, cənab prezidentə olunan müraciətə mən də imza ataram. Hesab edirəm ki, bu müraciət yerinə düşər. İlham Əliyevin daim hər kəsdə təəccüb doğuran qərarları olur. Ramil Səfərovun azadlığa buraxılması hər kəsin yadındadır. Müraciət etmək olar. Orada mənim də imzam olacaq".

**❑ Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 198 (6226) 8 sentyabr 2015

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

**Türkiyə-Azərbaycan Hərbi-Hava Qüvvələrinin birgə təlimi başa çatandan az sonra ordumuzun daha bir iri hərbi təlimi başlayıb. Rəsmi məlumata görə, sentyabrın 13-dək davam edəcək təlimlərə 65 min nəfərlik şəxsi heyət, 700 zirehli texnika, 500-dən çox raket və artilleriya qurğusu, 40-dək təyyarə, 50-dək helikopter, 20-dək gəmi və kater cəlb edilib. Bir həftə ərzində Silahlı Qüvvələrin bütün qoşun növlərinin döyüşə hazırolma və döyüş qabiliyyətinin ən ciddi şəkildə yoxlanılması nəzərdə tutulub.**



nin söylədiyi kimi, müharibəni qısa zamanda diplomati vasitələrlə durdura biləcəkmi? Axı Azərbaycan uzun müddət təcavüzlə barışa bilməz, bunu elementar məntiq diktə edir.

*****

Ümid eləmək qalır ki, Bakının intensivləşən genişmiqyaslı hərbi təlimləri fonunda Ermənistan prezidenti Serj Sərkisyanın Moskvaya çağırılması *(məhz çağırılması, çünki Rusiya üçün Ermənistan adlı suveren və müstəqil dövlət çoxdan mövcud deyil)* həm də münaqişə zonasında yeni müharibə risklərinin təhlükəli dərəcədə artması ilə

# Bakının ən iri təlimlərlə dünyaya çatdırdığı əsas mesaj

## Amerikadakı analitik mərkəz də təsdiq edir ki, Azərbaycan işğal altındakı torpaqlarını qısa zamanda azad edə bilər, ancaq...; rusiyalı politoloq: "Ermənistana genişmiqyaslı hərbi əməliyyatların bərpası sərfəli deyil"

**Göründüyü kimi, kifayət qədər genişmiqyaslı və sanballı təlimdir.** Elə təkcə şəxsi heyətin sayı *(65 min-red.)* Ermənistan və separatçı rejimin birgə silahlı canlı qüvvəsindən çoxdur. Bundan əlavə, hərbi ekspertlərə görə, ilk dəfə olaraq təlimlərə ölkə boyu bütün qoşun növləri cəlb olunub ki, bu da müharibəyə ən yüksək səviyyədə hazırlığın əsas hədəf kimi götürüldüyündən xəbər verir.

Bu faktın özü işğalçı Ermənistana özünü yığışdırıb sülh danışıqlarında daha konstruktiv olmaq üçün bir mesajdır, eyni zamanda İrəvana və onun havadarlarına növbəti güc nümayişidir. Ermənistanın əsas havadarı isə əlbəttə ki, Rusiyadır.

**Təbii ki, Azərbaycan belə iri, möhtəşəm təlimlərlə Rusiyanı hədələmir.** Moskvanı hədələmək, ona gün göstərmək imkanında da deyil, ancaq ən əvvəl Kremlə aydın bir şəkildə mesaj çatdırır ki, öz satelliti və marioneti Ermənistanın ərazilərimizi işğal altında saxlamasına, status-kvonun indiki kimi qalmasına uzun müddət göz yummaq fikrində də deyil.

Qarabağda yeni müharibə isə Rusiyanı ciddi seçim qarşısında qoymaqla, onun təkcə Azərbaycanla yox, Türkiyə ilə də münasibətlərini sual altına sala bilər. Başqa sözlə, Moskva da məntiqlə yeni müharibədə maraqlı olmamalıdır.

**Müharibə isə hər gün bir az daha hamının qapısına yaxınlaşmaqdadır.** Son vaxtlar sayı artan təlimlər ən əvvəl bunun göstəricisi sayılmalıdır. Şəksiz ki, Azərbaycan müharibə istəmir, ancaq onun öz ərazilərini hərbi yolla azad eləmək hüququnu da heç kim əlindən almayıb. Belə bir hüququ ona ən azından BMT Nizamnaməsi, Qarabağa dair BMT Təhlükəsizlik Şurasının məlum qətnamələri, digər mötəbər beynəlxalq təşkilatların müvafiq sənəd və qətnamələri verir.

**O üzdən rəsmi Bakının özünün hərbi qüdrətini ilbəil artırmasında qəribəlik, beynəlxalq hüquqa zidd heç nə yoxdur.** Əksinə, beynəlxalq birlik üçüncü on ildir işğalçı Ermənistanı yerində oturda bilmirsə, Azərbaycanın silahlanmaqdan və müharibəyə hazırlaşmaqdan savayı çıxış yolu qalmır. Rusiyalı politoloqlardan birinin dediyi kimi, Bakı böyük həcmdə bahalı silah-sursatı vitrinə qoymaq üçün almayıb.

*****

Bu mənada həm də qardaş Türkiyə Silahlı Qüvvələri ilə son vaxtlar intensivləşən təlimlər dünyaya açıq bir mesajdır ki, Dağlıq Qarabağ adlı yarım-dondurulmuş konflikt də var və onun həllinin uzanması nə bölgəyə, nə Rusiyaya, nə də Qərbə yaxşı heç nə vəd eləmir. Yəni tələsmək, konkret addım atmaq, münaqişənin bir daha alovlanmayacağına təminat verəcək praktik anlaşmaya nail olmaq zaman çatıb. Belə bir imkana isə hamıdan çox Rusiyadadır.

"Rusiya əlindən gələni edir ki, Dağlıq Qarabağ konflikti müharibə yox, sülh yolu ilə həllini tapsın". Musavat.com-un məlumatına görə, bu sözləri **rusiyalı ekspert, vaxtilə Putinin etibarlı şəxsi olmuş Sergey Markov** erməni portalına müsahibəsində təmas xəttindəki son durumu şərh edərkən deyib.



Sergey Markov

**Onun sözlərinə görə, hazırda hərbi əməliyyatların qızışma ehtimalı böyük deyil.** "Mən hesab edirəm ki, nə Ermənistana, nə də Azərbaycana geniş miqyaslı hərbi əməliyyatların bərpası sərfəli deyil. Bundan əlavə, hazırkı status-kvo İrəvanı qane edir. Əgər Azərbaycan müharibəyə başlasa, ciddi iqtisadi itkilərlə üzləşə bilər" - qeyd edib politoloq.

Müharibə əlbəttə ki, itki deməkdir. Ancaq bir şey dəqiqdir ki, ordusuna çağırışçı tapa bilməyən və iqtisadiyyatı onsuz da böhranda olan Ermənistan on qat artıq itki ilə üzləşəcək.

*****

**Bu arada Amerikadakı "Global Firepower" hərbi analitik mərkəz dünya ölkələrinin ordularının yeni reytinq siyahısını açıqlayıb.** Musavat.com-un xarici KİV-ə istinadən verdiyi xəbərə görə, reytinqi tərtib edənlər ölkənin nüvə silahının olub-olmamasına, siyasi-iqtisadi amillərə diqqət etmədiklərini qeyd ediblər. Həmçinin, dənizə çıxışı olmayan ölkələr üçün Dəniz Donanması faktorunu ciddiyə almayıblar.

**Reytinq siyahısına görə, Cənubi Qafqazda ən güclü ordu Azərbaycandadır - 63-cü yer. Ermənistan ordusu 74, Gürcüstan silahlı qüvvələri isə 75-ci yerə layiq bilinib.**

"Global Firepower"in siyahısından da görünür ki, bu gün Azərbaycan işğal altındakı torpaqlarını qısa müddətdə hərbi yolla azad eləmək gücünə malikdir - yetər ki, Rusiya məsələyə müdaxilə eləməsin, Ermənistanın havadarlıq eləməsin.

Fəqət, Rusiya bitərəf qalacaqmı? Və ya qala biləcəkmi? Bir sıra Moskva rəsmiləri-ni bağlıdır. Hələ vaxt və kövrək imkanlar qalır. Sabah gec ola bilər. Hamı üçün.

Onu da yaddan çıxarmaq olmaz və Yaxın Şərqin acı təcrübəsi də bir daha göstərdi ki, həll olunmamış münaqişələr və onlara dünya birliyinin, aparıcı dövlətlərin uzun illər laqeyd yanaşılması təkcə region ölkələr üçün deyil, bütövlükdə dünya üçün yeni böhranlar, miqrant problemi, yeni demoqrafik problem deməkdir.

**Bu xüsusda Azərbaycanın hərbi güc nümayişi beynəlxalq birliyə, Rusiyaya həm də belə bir çatdırış anlamındadır ki, əgər onlar daha bir dağıdıcı müharibə ocağı və hər cür radikal ekstremist-dinçi qüvvələrin meydan sulayacağı münaqişə mənbəyi arzulamırsa, o zaman Qarabağ məsələsinin ədalətli həllini təzləşdirsinlər.**

# Rusiyalı milyonçu avantürist yenə Qarabağa qayıtmaq istəyir



German Sterliqov

**Rusiyalı iş adamı German Sterliqov Ermənistan işğalı altında olan Dağlıq Qarabağla əlaqələri kəsmək niyyətində deyil və mütəmadi olaraq ora getməyi planlaşdırır. Bu barədə "İnterfaks"a açıqlamasında German Sterliqov özü bildirib (APA).**

"Bizim vətənimizə qayıtmağımız o demək deyil ki, Dağlıq Qarabağa geri dönməyəcəyik. Bizim üçün indi demək olar ki, Dağlıq Qarabağ doğma evdir", - deyə o, söyləyib. İş adamı Dağlıq Qarabağda kiçik təsərrüfat yaratdığını deyib: "Bizim indi öz təsərrüfatımız, balaca dəyirmanımız var. Orada biz buğda üyüdürük. Mənim yerli sakin olan tərəfdaşım da var. Təsərrüfatı oğlanlarım idarə edəcəklər. Mən də ora uçacağam".

Qeyd edək ki, rusiyalı sahibkar Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz keçdiyi üçün Azərbaycan tərəfindən İnterpol xətti ilə beynəlxalq axtarışa verilib. 2015-ci il avqustun 31-də G. Sterliqov İrəvandan Moskvaya gələrkən Rusiya hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən Domodedovo hava limanında saxlanılıb və gecə saat 01.00 radələrində Rusiya Federasiyası ərazisini tərk etməmək şərti ilə müvəqqəti olaraq sərbəst buraxılıb.

Azərbaycan Respublikası Baş Prokurorluğunun və Daxili İşlər Nazirliyinin əməkdaşlarından ibarət istintaq-əməliyyat qrupu G. Sterliqovun dindirilməsi üçün Moskva şəhərinə ezam olunub.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

# 7 ballıq zəlzələ; möcüzəvi qurtuluş, yoxsa saxtakarlıq?

**Bir neçə gün əvvəl Azərbaycan ərazisində 7 bal gücündə zəlzələ baş verdi. Ən güclü təkanlar Şəkidə qeydə alınıb və böyük bir ərazini əhatə edib. Əhali bu zəlzələdən sonra təşvişə düşüb və bu zəlzələnin yenidən baş verəcəyindən qorxur. Hətta insanlar arasında paytaxtda da güclü zəlzələnin olacağı haqda söhbətlər dolaşır. Bir qisim insan isə bir neçə gün əvvəl baş verən zəlzələnin əslində 7 bal gücündə olmadığını və bu rəqəmin şişirdildiyini bildirir.**

## Vüsalə Rafiqqızı: "Burada maqnituranın şişirdilməsindən söhbət gedə bilməz"
## Professor Kərim Kərimov: "Bakı və Bakı ətrafındakı ərazilərdə heç bir zəlzələ gözlənilmir"

Maraqlıdır, bu nə dərəcədə doğrudur? 7 ballıq zəlzələdən möcüzəvi şəkildəmi qurtulduq, yoxsa bu bir saxtakarlıqdır? Məsələ ondadır ki, Türkiyədə, Yaponiyada 6-7 ballıq zəlzələ şəhərləri viran qoyur...

Dəqiqləşdirmə apararkən öyrəndik ki, ümumiyyətlə zəlzələlər müxtəlif üsullarla ölçülür. Zəlzələnin proqnozu üsullarından biri Yer qabığında müxtəlif səslərə qulaq asmaqdan ibarətdir. Yer qabığında hər bir böyük pozğunluqdan qabaq xırda pozğunluqlar baş verir, bu pozğunluqlar zəlzələ yaratmır, lakin hazırlıq işi aparır. Bu ibtidai pozğunluqlar müxtəlif səslər yaradır, səslərə qulaq asmaq üsuluna əsasən həssas səs cihazları ilə bu səsləri eşitmək mümkün olur. Zəlzələ proqnozunun ikinci üsulu, meylölçənlər vasitəsilə Yer səthinin meylini öyrənməkdən ibarətdir. Bu cihazlar Yer səthinin ən kiçik meylini böyük dəqiqliklə ölçür. Meylölçənlər Yer qabığının hərəkətləri ilə və zəlzələyə hazırlıq işləri ilə əlaqədar olan meylləri qeyd etməkdən başqa, xarici səbəblər nəticəsində baş verən meylləri də göstərir. Təəssüf ki, meylölçənin ümumi qeydlərindən, daxili səbəblərin yaratdığı meyli ayırmaq böyük çətinlik törədir. Üçüncü üsul atmosferin elektrik vəziyyətini dəyişməsi, yəni zəlzələdən qabaq və zəlzələ zamanı elektromaqnit dalğaların əmələ gəlməsi üzərində aparılan müşahidələrə əsaslanır. Lakin bu müşahidələr hələlik təsadüfi olub, sistematik tədqiqat aparmağı tələb edir. Zəlzələnin intensivliyi yer səthində titrəyişin dərəcəsini göstərir və balla ölçülür. Ölkəmizdə 12 bala bölünmüş seysmik cədvəldən (şkaladan) istifadə olunur. Bu cədvələ görə zəif zəlzələlərin intensivliyi 2-3 bal, güclü zəlzələlərinki 5-6 bal, çox güclülərinki 7 bal, dağıdıcı zəlzələlərinki 8 bal, viranedici zəlzələlərinki 9-10 bal, katastrofik zəlzələlərinki 11-12 bal sayılır. Daha dəqiq desək, 1 bal-hiss olunmayan, 2 bal-çox zəif, 3 bal-zəif, 4 bal-orta, mülayim, 5 bal-nisbətən güclü, 7-bal çox güclü, 8 bal-dağıdıcı, 9 bal-viranedici, 10 bal-məhvedici, 11 bal katastrofik, 12 bal-dəhşətli katastrofik zəlzələ sayılır. 2 balda torpaq son dərəcə parçalanır, çoxlu çatlar, sürüşmələr, uçqunlar baş verir, şəlalələr əmələ gəlir, çay dərələrinin qabağı kəsilir, göllər yaranır, çayların məcrası dəyişir. Bütün binalar uçub dağılır.



**Respublika Seysmoloji Xidmət Mərkəzinin (RSXM) mətbuat xidmətinin rəhbəri Vüsalə Rafiqqızı** zəlzələ balının şişirdilməsi xəbərlərinin əsassız olduğunu dedi: "Baş verən zəlzələlərlə bağlı məlumatlar bizim respublika ərazisində olan 35 seysmik telemetrik rabitəsi ilə işləyən stansiyalarımız vasitəsi ilə qeydə alınır. Həmin məlumatlar tək bizim deyil, dünyanın aparıcı ölkələrinin seysmoloji xidmət mərkəzlərinin stansiyalarında da qeydə alınır. Burada maqnituranın şişirdilməsindən söhbət gedə bilməz. Sadəcə olaraq gələn siqnalların emalı zamanı ola bilər ki, bir ölkədə nəticə başqa cür gəlir. Məsələn, Amerika maqnitudanı 5,4, biz isə 5,9 göstərdik. Bu ərazi məsafə ilə bağlıdır. Mən yenə də rəsmi olaraq təkrar edim ki, baş verən zəlzələnin maqnitudası 5,9 idi. Bunu da bala çevirəndə 7 bal edir. Dərinliyi isə 13 kilometr idi. Təbii ki, kimlərsə çıxıb nələrsə deyib müxtəlif rəqəmlər səsləndirə bilər. Amma unutmaq lazım deyil ki, o rəqəmləri, kordinatları heç kim özündən qoymur. Qeydə alınan siqnallar, onun emalı nədirsə, o rəqəmlərdə ortaya çıxır".

**V.Rafiqqızı bildirdi ki, heç kim zəlzələnin proqnozunu qabaqdan verə bilməz:** "Seysmologiya elmi hələ zəlzələnin dəqiq proqnozunun əvvəlcədən xəbər edilə bilməsi sualına dəqiq cavab tapmayıb. Biz sizə rəsmi şəkildə bəyan edirik ki, yayılan əsassız informasiyalar şayiədir. Heç kim zəlzələnin baş verəcəyini əvvəlcədən bilə bilməz".

**Azərbaycanlı alim, Geofizika İnstitutunun professoru Kərim Kərimov** Bakıda heç bir zəlzələ gözlənilmədiyini dedi: "Zəlzələni əvvəlcədən bildirən ixtiramı dünya qəbul edib. Azərbaycanda isə buna laqeydlik göstərirlər. bu ixtira quraşdırılan üç stansiya sayəsində zəlzələni bir saat əvvəlcədən xəbər edə bilər. Bir neçə gün baş verən zəlzələ paytaxtımızda gözlənilmir. Amma Azərbaycan seysmoloji cəhətdən aktiv zonadır. Mən deyə bilərəm ki, hələlik gözlənilmir. Çünki 3-5 ay müddətində o enerji toplanmalıdır. Mən üç stansiya vasitəsilə bir neçə saat qabaq zəlzələnin olub-olmayacağını deyə bilərəm. O stansiyadan minimum 122 kilometr məsafəni göstərir ki, burada zəlzələ gözlənilir. Yarım saat qabaq isə konkret hansı nöqtədə olacağını göstərir. Mən bu ixtirama beynəlxalq patent almışam. Biri çıxıb ortalığa desin ki, mən ikisini almışam. Mənim zəlzələ ilə bağlı ixtirama beynəlxalq Avrasiya patenti almağıma baxmayaraq yenə də qəbul etmirlər. Bu cür yanaşma düzgün deyil".

**K.Kərimov Bakı və Bakı ətrafındakı ərazilərdə heç bir zəlzələnin gözlənilmədiyini bildirdi.**

❑ **Günel MANAFLI**

## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclərın dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra **Tel: (012) 437-88-05; (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

### Elan

**Buzovna dairəsində, Daxili Qoşunların yanında 7 sot torpaq satılır. Sotu 7500 AZN.**

**Əlaqə telefonu: (050) 343-59-72**

### Elan

**Qəbələ rayonu Vəndam kəndində parket fabriki bütün avadanlıqları ilə birlikdə, çox ucuz qiymətə (15000 AZN) təcili satılır.**

**Tel: 070 335 90 15**

## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34



## Xalq artisti İlham Əsgərov Masallıda dəfn edildi

**Ötən gün qəflətən dünyasını dəyişən xalq artisti İlham Əsgərovla vida mərasimi keçirilib. APA-nın məlumatına görə, vida mərasimində mədəniyyət və turizm naziri Əbülfəs Qarayev, nazir müavini Ədalət Vəliyev, Akademik Milli Dram Teatrının direktoru İsrafil İsrafilov, aktyorun sənət dostları iştirak edib. Ə. Vəliyev çıxış edərək İ. Əsgərovun Azərbaycan teatrının inkişafındakı xidmətlərindən, ömür yolundan danışıb və onun yoxluğunu Azərbaycan mədəniyyəti üçün itki kimi dəyərləndirib.**

Vida mərasimindən sonra İ. Əsgərovun cənazəsi dəfn olunmaq üçün Masallı rayonuna yola salınıb.

Maraqlıdır ki, vida mərasimi Akademik Milli Dram Teatrında təşkil edilməyib. Onunla vidalaşmaq üçün yaxınları mərhumun evinə toplaşıblar.

Xalq artisti İlham Əsgərov ötən gün qəflətən infarkt keçirib. Xəstəxanaya aparılan aktyor yoldaca dünyasını dəyişib.

Xatırladaq ki, İlham Əsgərov 3 sentyabr 1958-ci ildə anadan olub. 1982-ci ildən Akademik Milli Dram Teatrının aktyoru kimi fəaliyyət göstərib. O, 28 oktyabr 2000-ci ildə Azərbaycan Respublikasının Əməkdar Artisti, 15 may 2006-cı ildə Xalq Artisti fəxri adlarına layiq görülüb. 9 may 2012-ci ildə, 30 aprel 2014-cü ildə və 6 may 2015-ci ildə Prezident Mükafatına layiq görülüb.

**Allah rəhmət eləsin!**

❑ **Xalidə GƏRAY**

YENİ MÜSAVAT
N 198 (6226) 8 sentyabr 2015

# Mərkəzi Nəbatat Bağının problemləri

## Vətəndaşlar buradakı su qıtlığından, natəmizlikdən gileylənirlər...







**Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Mərkəzi Nəbatat Bağının işçiləri vətəndaşlardan, vətəndaşlar isə onlardan narazıdırlar. Mərkəzi Nəbatat Bağında (Mərkəzi Botanika bağı-red.) su problemi yaşanır. Bu barədə musavat.com-a bağa istirahət məqsədi ilə yollanan Bakı sakinləri məlumat veriblər.**

Nəbatat bağı və Nəbatat İnstitutu üçün Dağüstü parkdan (indiki "Şəhidlər xiyabanı"ndan) başlamış "Qurd qapısı"na gedən yol arasında 80-100 hektar sahə ayrılması və buranın su ilə təchizatı ilə bağlı qərar hələ 1934-cü ildə verilib. O zamandan etibarən isə bağa müxtəlif növ ağac və bitkilər əkilib, bura Botanika bağı kimi zənginləşdirilib.

Botanika bağına bir nəfər üçün giriş haqqı 1 manatdır. Əlavə olaraq ərazidə avtomobil saxlamaq üçün də vətəndaşlardan 1 manat alınır. Lakin bağın içərisindəki natəmizlik diqqət çəkir. Eyni zamanda orada olarkən şahidi olduq ki, ərazidə yeni tikilmiş ayaqyoluların da qapıları bağlanılıb. Bağda istirahət etmək istəyən şəxsləri də ən çox narahat edən budur. Ərazidə gəzdiyimiz zaman həmsöhbət olduğumuz Süleyman Quliyev adlı vətəndaş bildirdi ki, bura hər həftə sonu gəlir. Lakin bağın ortasında yeni tikilmiş ayaqyolunun qapısının açıq vaxtı olmur. Vətəndaş bildirir ki, əgər giriş ödənişlidirsə, burada heç olmasa bu kimi adi qaydalara əməl edilməlidir: "İkincisi, bura gələndə əlimizi yumağa su tapmırıq".

**S.Quliyevlə birlikdə Botanika bağında olan krantlardan suyun gəlib-gəlmədiyini biz də yoxladıq; su gəlmirdi.**

Özlərini təqdim etməyən mühafizəçilər ayaqyoluların qapısının bağlı olmasını su problemi ilə əlaqələndirdilər. Onlar bildirdilər ki, su olmadığı üçün vətəndaşlar natəmizlik yaradırlar. Ona görə də qapılar bağlı saxlanılır.

**Mühafizəçilərlə söhbətimiz əsnasında bir nəfər yanımızda öz avtomobilini saxladı.** O avtomobilindən düşən kimi mühafizəçilərin üzərinə qışqırıb, nə üçün ərazidə olmadıqlarını soruşdu. Özünü direktorun müavini kimi təqdim edən bu şəxs, adını söyləməsə də, bizimlə birlikdə ərazini gəzib, problemlər barəsində danışdı. Onun sözlərinə görə, bağda heç bir su problemi yoxdur: "Problemlərin kökündə vətəndaşların məsuliyyətsizliyi dayanır. Hər bir yeni tikilən ayaqyolunun arxasında 2 tonluq çənlər quraşdırmışıq. Su gəldiyi zaman həmin çənləri doldururuq. Lakin vətəndaşlar çənlərdə suyun qalmasına imkan vermirlər. Onlar su krantlarını açıq qoyurlar, bu da bizim üçün əlavə problemlər yaradır. Eyni zamanda ərazidə 45 ədəd zibil qutusunun olmasına baxmayaraq, vətəndaşlar zibilləri xaricdən gətirilmiş bitkilərin diblərinə tökürlər. Mən şəxsən hər gün buradan pivə bankaları yığmaqdan yorulmuşam. Bağın girişində müşahidə kameraları qoyulub. Bundan əlavə, mühafizə xidmətimizin əməkdaşları da mütəmadi olaraq əraziyə baxış edirlər. Ancaq yenə də vətəndaşların qarşısını ala bilmirik. Ayaqyolunun krantını belə açıb aparırlar. Bir də görürük ki, su axıb tökülür yerə. Eyni zamanda ərazidə ayaqyolunun harada olduğunu göstərən nişanlar da var idi ki, onları da vurub sındırıblar. Bağın ərazisi həftə içi hər gün təmizlənsə də, insanların atdıqları zibillər tükənmir".

Botanika bağının piknik üçün ayrılmış sahəsində gəzərkən, bir məqamın da şahidi olduq ki, bura bəzi gənclər ön qapıdan girmək əvəzinə, arxadan, çəpərin üzərindən aşmaqla daxil olurdular.

**Məsələ ilə bağlı Milli Ekoloji Proqnozlaşdırma Mərkəzinin rəhbəri Telman Zeynalovla** danışdıq. O musavat.com-a bildirdi ki, Botanika bağı Azərbaycan Milli Elmlər Akademiyasının nəzdində olduğu üçün burada baş verən hallara da akademiya cavabdehdir: "Bütün hallarda bu kimi ərazilərdə təmizlik qorunub saxlanmalıdır".

**AMEA-nın Biologiya və Tibb Elmləri Bölməsinin elmi katibi Ramiz Babayev** problemdən məlumatsız olduğunu və dərhal bununla bağlı bağın rəhbərliyi ilə əlaqə saxlayıb maraqlanacaqalarını bildirdi.

**Botanika bağı ilə təkrar əlaqə saxlayıb direktorla görüşmək istədik.** Bildirdilər ki, direktor məzuniyyətdədir. Onun əvəzləyicisi kimi **direktorun elmi işlər üzrə müavini Eldar Novruzov** musavat.com-a açıqlamasında dedi ki, bağda işçilər hər gün çalışırlar: "Təbii ki, ağacların sulanması üçün lazımi miqdarda su verilmir. Ancaq vətəndaşların əl yumaları üçün bağın daxilində çənlər quraşdırmışıq ki, o çənləri də hər zaman doldururuq. Bağda elə bir problem yoxdur. Cəmi 5 nəfər nəzarətçimiz var. Bura isə hər gün 100-dən çox insan gəlir. Hər kəsə nəzarət etmək olmur. Vətəndaşlar da bilməlidirlər ki, bura ölkəmiz üçün əhəmiyyətli ərazidir. Öz davranışlarına diqqət edib, ərazini təmiz saxlamalıdırlar. Əgər ortaya hər hansı bir problem çıxırsa, onunla məşğul olub lazımi tədbirləri görürük. Lakin hazırda bağda deyildiyi kimi, əsaslı problem yoxdur".

❑ **Əlì Raìs,**
**Fotolar müəllìfìndìr**



# Corabınızda soğan varsa, həyatınız dəyişə bilər...

## Çin təbibləri sağlam həyat üçün soğan-sarımsaq formulasını kəşf ediblər

**Çin təbibləri sağlam orqanizm üçün yeni və fərqli metodlar kəşf ediblər. Zaman-zaman tibb dünyası bu yeni kəşflərdən yararlanır və ondan istifadə edir. Son olaraq "soğan-sarımsaq" metodu gündəmi zəbt edib. Bu barədə Rusiya KİV-ləri məlumat yayıb.**




Çin ənənəvi tibbində "meridian" anlayışı var. Bu anlayışa əsasən, insan orqanizmində enerji sirkulyasiyası baş verir. Akupunktur da elə bu həmin meridianları stimulyasiya edir. Nəzərə almaq lazımdır ki, sözügedən meridianlar bəlli daxili orqanlarla əlaqəlidir, onların köməyi ilə xəstəlikləri müalicə etmək olar.

İnsanın ayaqlarında 7000-ə yaxın sinir sonluqları yerləşir. Çin teoriyasına görə, bu, insan orqanizmindəki bütün orqanlarla əlaqəlidir. Amma bir problem var - bu meridian vasitəsilə yayılan enerji passivləşir. Çünki müasir insanlar davamlı olaraq ayaqqabı geyinirlər. Odur ki, meridianları doğru stimulyasiya etmək lazımdır. Bunun əsas üsulu isə maksimum çox ayaqyalın gəzmək, ya da corabın içinə adi soğan yerləşdirməkdir. Belə ki, soğanı kolbasa kimi doğramaq, sonra isə onu ayağın altında yerləşdirib, corabı geyinmək lazımdır. Gecə bu formada yatmaq məsləhət görülür. Meridianların stimullaşdırılması ilə paralel, bu üsul dərinin üstündəki bakteriya və mikrobların öldürülməsinə də yardım edir. Onun tərkibindəki fosfor turşusu isə qana düşərək, onun təmizlənməsinə kömək edir.

Çin təbibləri eyni zamanda müalicə məqsədilə istifadə olunmuş soğan və sarımsağı daha sonra dərhal atmağı məsləhət görür. Amma maraqlıdır ki, gecə boyu corabın içində soğan-sarımsaq saxlamağı çin təbibləri ilə yanaşı, milli tibb də məsləhət görür. Doğrudur, meridianların təmizlənməsi üçün yox, soyuqdəymənin qarşısını almaq üçün.

**Bu üsuldan istifadə etmənin faydası:**

1. Siz öz qanınızı təmizləyə bilərsiz. Bunu soğanın tərkibindəki fosfor turşusu edə bilər.
2. Bütün zərərli bakteriya və mikroblar yerli-dibli məhv olur.
3. Daha sizin ayaqlarınızdan xoşagəlməz qoxu gəlməyəcək.

❑ **SEVÌNC**

# "Aksiz vergiləri yenidən artırıla bilər"

## Samir Əliyev: "Hökumətdə büdcəni doldurmaq üçün vergi daxilolmalarının artırılması niyyəti açıq hiss olunur"

**"2013-cü ildə yanacağın bahalaşmasından əlavə qazanc götürməyi planlaşdıran hökumət çox keçmədi öz faydasını SOCAR-a transfer etməli oldu. Yeddi illik fasilədən sonra yanacağın bahalaşmasına səbəb aksiz vergisinin artırılması idi və vergi gəliri dövlət büdcəsinə çatmalı idi". Ekspert Samir Əliyev benzinin ucuzlaşmaması barədə müzakirələrə münasibət bildirərkən belə deyib.**

Onun sözlərinə görə, Nazirlər Kabinetinin 2 dekabr 2013-cü il qərarı ilə Aİ-95 markalı benzinin aksiz dərəcəsi 101 faizdən 159 faizə, Aİ-92 (92%) və Aİ-80 (93%) markalı benzinlərin hər ikisi üçün aksiz dərəcəsi 134 faizə qaldırıldı: "Dizeldə artım 24 faizdən 57 faizə çatdırıldı. Sonradan dövlət öz qazancından imtina etdi və xeyiri SOCAR-a bağışladı. Belə ki, Nazirlər Kabineti 6 fevral 2014-cü il tarixli, 35 saylı qərarı ilə Aİ-92 markalı benzinə tətbiq edilən aksiz vergisi 65 faizə, Aİ-80-də 66 faizə, dizeldə isə 18 faizə endirildi. Göründüyü kimi, azalma daha çoxdur. Bu azalmadan sonra yanacağın topdansatış qiyməti aşağı salınmadı. Səbəb isə aydındır: SOCAR-ın şirkətdaxili qiymətləri artırılıb. Nazirlər Kabinetinin 35 saylı Qərarından sonra Aİ-92 markalı benzin üçün şirkətdaxili qiymətlər 290,44 manatdan 411,92 manata, Aİ-80 benzini üçün 290,44 manatdan 409,43 manata, dizel üçün 323,32 manatdan 430,19 manata qaldırılıb. Qısaca desək, SOCAR satılan hər ton üçün qazancı 121,47 manat (Aİ-92), 119 manat (Aİ-80) və 106,9 manat (dizel) təşkil edir. SOCAR-ın benzindən qazancı 41%, dizel yanacağından isə 33 faiz artıb. Bu barədə Maliyyə Nazirliyinin 2014-cü il dövlət büdcəsinin icrasına dair Hesabatında da qeyd edilir. **Hesabatda deyilir:** "Azərbaycan Respublikası Vergilər Nazirliyinin xətti ilə dövlət büdcəsinə aksiz üzrə 784,5 milyon manat proqnoza qarşı 740,3 milyon manat, yəni nəzərdə tutulduğundan 44,2 milyon manat az vəsait daxil olub. Aksiz vergisinin kəsrlə icra olunmasının əsas səbəbi daxili bazarda neft məhsullarının qiymətlərinin artması nəticəsində yaranan əlavə vəsaitin 2014-cü ilin yanvar ayından tam məbləğdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin şirkətdaxili qiymətlərə aid edilməsi olub"



**S.Əliyev qeyd edib ki, 2014-cü ildə ölkə üzrə 1,3 milyon ton benzin və bir o qədər də dizel istehlak olunub:** "Müxtəlif məlumatlara görə, Aİ-95 benzinin payı 10 faiz civarındadır. Deməli, Nazirlər Kabinetinin 35 saylı qərarının nəticəsi olaraq SOCAR-ın illik qazancı təxminən 280 milyon manat artıb. SOCAR bu vəsaiti itirməmək üçün hazırda benzini ucuzlaşmasının əleyhinə çıxır. Xarici bazarda itirdiyi gəlirləri də daxili bazar hesabına kompensasiya etmək istəyir.

Neftin ucuzlaşması fonunda büdcə gəlirlərinin azalmasının qarşısını almaq üçün aksiz vergilərinin yenidən artırılmayacağına təminat yoxdur. Hökumətdə büdcəni doldurmaq üçün vergi daxilolmalarının artırılması niyyəti açıq hiss olunur. Belə olacaqsa, yəni aksiz vergiləri artırılacaqsa, yanacağın yenidən bahalaşması gündəmə gələcək. Bu dəfə qazanc SOCAR-a yox, dövlət büdcəsinə çatacaq. Bahalaşmanın zərərini isə əhali görəcək".

❑ **RÖYA**

YENİ MÜSAVAT

Son səhifə

N 198 (6226) 8 sentyabr 2015



## Sağlamlığına zərər verən paltarlar

**Qələm ətək - Dizlərinizi yaxınlaşdıraraq balanslı yeriməyi və dizləri bükməyi çətinləşdirir. Bu vəziyyət zamanla əzələlərin çəkilməsinə və hətta dizlərdə problemlərə yol aça bilir.**

Bədəni incəldən korsetlər - likralı və ya elastik deyilsə, paltarların altından geyilən dar korset nəfəs alışı və hərəkət qabiliyyətini çətinləşdirdiyindən onurğaya anormal bir təzyiq tətbiq edə bilir.

Hündürdaban ayaqqabı - Həm ayaq, həm də kürək sağlamlığını təhlükəyə salır. Diz ağrıları da yenə nizamlı olaraq yüksək dabanlı ayaqqabı geyildiyində artır.

Böyük çantalar - xüsusilə dirsəyə ilişən böyük çantalar da onurğada zamanla əyriliyə səbəb olan görüntü yaradır və çiyin, kürək, boyun sağlamlığına zərərlidir.

Dar cinslər - həm bel, həm omba, həm də baldırları möhkəm sıxan bir geyimdir. Yeriyəndə çətinlik çəkdiyiniz kimi oynaqlarda da uzun müddətli ağrılara səbəb olur.

# Çərəzlərin bu faydalarını bilirdiniz?

**Çox zaman televizor qarşısında və ya uzun yolda fərqində olmadan yediyimiz çərəzlər əslində orqanizm üçün çox faydalıdır. Badam xüsusilə zehni yorğunluq zamanı tövsiyə edilir. Badamın iltihab təmizləyici və baş ağrısını kəsən özəlliyi var. Fındıq halsızlıqdan şikayət edənlər üçün enerji mənbəyidir. Xolestrolu tənzimləmək və yararlı mineralları təmin etmək üçün əvəzsizdir.**



Qoz müntəzəm istifadə edildiyi təqdirdə ürək və damar xəstəliklərinə qarşı qoruma özəlliyinə malikdir. Tərkibindəki maqnezium sayəsində diabet xəstəliyindən əziyyət çəkənlər üçün insulin və qlükoza tarazlaşdırıcı özəlliyə sahibdir. Hüceyrələrin oksigenlə təmin edilməsinə də kömək edir.

Fıstıq qandakı xolesterol səviyyəsini salır. Protein və fosforla zəngin olan fıstıq qan şəkərinin qalxmasının qarşısını alır.

Ləbləbi müxtəlif xəstəliklərlə mübarizədə effektivdir. Ana südünü artırır. Xüsusilə mədə turşuluğu yüksək olanlar üçün rahatlaşdırıcı təsirə malikdir. Yer fıstığı bədənə enerji və güc verir. Zehni və fiziki yorğunluğu aradan qaldırır. Ürək və damar xəstəliklərindən qoruyucu təsirə malikdir. Balqabaq toxumu bağırsaqdakı qurdları təmizləmək xüsusiyyətinə malikdir. Qaysı stressi azaldır. Qansızlığa dərmandır və qaraciyər üçün faydalıdır.

# Sağlam yuxu üçün məsləhətlər

1. Yatmazdan əvvəl ayaqlarınızı ılıq su ilə yuyun, daban və ayaq pəncələrinizi küncüt yağı ilə isladılmış pambıqla silin
2. Yatağın baş tərəfinin şərq istiqamətində olmasına diqqət edin.
3. Yatarkən üzünüzü yorğanla örtməyin.
4. Yataq dəstinizin təmiz və quru olmasına xüsusi diqqət yetirin.
5. Tez yatıb, tez durmağı vərdiş halına salın.
6. Qarnı üstə yatmayın
7. Yatmazdan öncə otağın havasını dəyişin.
8. Yataq otağında heç bir məişət cihazı saxlanılmamalıdır.
9. Yataq paltarlarınızın təbii materiallardan olmasına diqqət yetirin.
10. Tam kürəyi üstə yatmaq məsləhət görülmür.
11. Yatmazdan qabaq yeməkdən imtina edin.
12. Yuxunuzun dərin və sağlam olmasını istəyirsinizsə, yatmazdan ən azı 1-2 saat əvvəl zehni əməklə məşğul olmaqdan çəkinin (modern.az).





## Lunatik qız qəza törətdi

İngiltərədə yaşayan 26 yaşlı lunatik qız yuxuda maşın sürməyə çalışdığı üçün qəza törədib. Kelly Jakson adlı qız gecə yatarkən yatağından qalxıb maşınına oturub və sürməyə başlayıb. Qısa müddət sonra isə maşını ağaca çırparaq qəza törədib. Qəza zamanı maşının qapısı açılıb və qadın maşından yerə düşüb. 3 həftə komada qalan qadın özünə gəldikdən sonra da xəstəxanada müalicə edilib. Bir ayağı kəsilən Jaksonun üzündə də bir çox estetik əməliyyatlar edilib. Başına gələnlər haqqında "Daily Mail" qəzetinə müsahibə verən Jackson "yaşaya bildiyim üçün özümü şanslı hiss edirəm" deyib. "Mənə sevgilimlə gəzməyə getdikdən sonra gəlib yatdığımı dedilər. Lakin niyə gecə paltarı ilə maşın sürməyə çalışdığımı bilmirəm. Uşaq vaxtı yuxuda gəzirdim. Yəqin ki, bunu yenidən təkrarlamışam. Həkimlər də bunu yuxulu halda etdiyimi düşünürlər. Lakin mən qəza haqqında heç bir şey xatırlamıram. Bu, gerçəkdən də qorxuncdur" deyə, o müsahibəsində deyib.




**QOÇ** - Ulduzların düzümü rahatlığı daha çox səfər və qonaqlıqlarda tapa biləcəyinizdən xəbər verir. Çünki bu gün sizə çoxlu adamlarla təmasda olmaq vacibdir. Tənhalığa qurşanmayın.

**BUĞA** - Bir tərəfdən cəhdlərinizin boşa çıxması, digər tərəfdənsə ətrafınızda olanların naxələfliyi ovqatınızı poza bilər. Odur ki, müəyyən qədər təcrid olunub öz aləminizə qapılın.

**ƏKİZLƏR** - Ulduzlar bu təqvimi daha çox istirahətə ayırmağı tövsiyə edir. Ağır fiziki və zehni işlərə girişməyin. Saat 16-dan sonra qonaq getməyə, ikili gəzintilərə aludə olmağa dəyər.

**XƏRÇƏNG** - Ümumi məziyyətlərinə görə qənaətbəxş təqvimdir. Xüsusən də saat 14-16 aralığında hansısa xoş bir hadisəylə rastlaşacaqsınız. Ailə üzvlərinizlə, həmkarlarınızla mehriban davranın.

**ŞİR** - Bəxtinizdə ilahi bir təqvim durub. Bu səbəbdən də hansısa müqəddəs yeri ziyarət etmək, kimsəsizləri sevindirmək böyük savab qazandıra bilər. Axşam maraqlı insanlarla görüşünüz mümkündür.

**QIZ** - Səhhətlə bağlı nasazlığınız olsa da, bu, ovqatınızı pozmayacaq. Əksinə, gün ərzində iştirakçısı olduğunuz proseslər sizi xeyli fərəhləndirəcək. Ətrafınıza yaxşı insanlar toplaşacaq.

**TƏRƏZİ** - Çox düşərli gündür. Boş durmaqdansa ən xırda şansdan belə istifadə edin. Tərəfdaşlıq zəminində, perspektivli sövdələşmələrdə uğurlarınız artacaq. Özünüzü soyuqdəymədən qoruyun.

**ƏQRƏB** - Həddindən ziyadə uğurlu gündür. Ürəyinizə yaxın adamlarla rastlaşmağınız, həmçinin sevindirici təkliflər almağınız uzun müddət yadınızda qalacaq. Uzaq yola çıxsanız, ehtiyatlı olun.

**OXATAN** - Maliyyə vəziyyətiniz imkan versə, özünüzə təzə geyim alın. Çünki xeyli müddət belə fürsət ələ düşməyəcək. Göy qübbəsi kənar təsirlərə aludə olmamağı, riskdən qorxmamağı tövsiyə edir.

**OĞLAQ** - Yalnız maliyyə məsələlərində uğurlarınız gözlənilir. Odur ki, əsas gücünüzü bu istiqamətə yönəldin. Kiməsə borc vermək və ya almaq fikrindən uzaq olun. Axşam başqa ünvana getməyin.

**SUTÖKƏN** - Saat 15-ə qədər qarşılıqlı münasibətlərdə gərginlik gözlənildiyindən tədbirli olun. Bunu bacarsanız, ulduzlar sonrakı müddətdə sizə xüsusi zövq verəcək. Təzə xəbər də eşidəcəksiniz.

**BALIQLAR** - Sağlıq durumunuzda və fəaliyyət istiqamətində problemləriniz gözlənilsə də, qalan işləriniz uğurlu olmalıdır. Hətta günün ikinci yarısında qazanmaq ehtimalınız da var.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Nankor pişiklər



**İngiltərənin Lonkoln Universitetində aparılan araşdırma dünyanın ən çox saxlanılan ev heyvanı haqqında "nankor" ifadəsini təsdiqləyən nəticələr ortaya qoyub. Araşdırmalara görə, pişiklər özlərini təhlükəsiz hiss etmək üçün insanlara ehtiyac duymurlar. Buna görə də pişiklər sahiblərindən ayrıldıqları zaman özlərini narahat hiss etmirlər. Mütəxəssislər pişiklər üzərində araşdırma aparmaq üçün 20 pişiyi sahibindən alaraq başqa ailələrin yanına göndəriblər. Nəticədə məlum olub ki, pişiklərin heç biri sahiblərinin yanından ayrıldıqları üçün narahat deyillər və onları axtarmırlar.**

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300